AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

10 mart 2017-ci il № 17-20 (9111) Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### "ZIĞ" QURU YÜK LİMANI FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" quru yük limanı fəaliyyətini beynəlxalq standartlara uyğunlaşdırır. Hazırda 6 ha sahəyə malik liman tamamilə abadlaşdırılır, ərazi və körpülər betonlaşdırılır, qaldırıcı qurğular - kran və avtoyükləyicilər yenilənir.*

Səh. 2

### CƏMİYYƏTİN BƏZƏYİ VƏ QORUYUCU MƏLƏKLƏRİ

*Bu misraları nə vaxt yazdığım yadıma düşmür. Bildiyim təkcə odur ki, bütün analar övladlarının barmağına bircə tikanın da batmaması üçün canlarını fəda etməyə hazırdırlar.*



Səh. 3

### GƏNCLƏRƏ BAKI LİMANININ FƏALİYYƏTİ BARƏDƏ MƏLUMAT VERİLİB

*"İrəli" İctimai Birliyinin fəal gənclərinə Bakı Limanın fəaliyyəti barədə məlumat verilib.*

*"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib ki, məlumatlar "İrəli" İctimai Birliyinin bir qrup fəal gəncinin Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanına səfəri zamanı verilib.*



Səh. 4

### TAP LAYİHƏSİNƏ 270 MİLYON AVRO SƏRMAYƏ YATIRACAQ



TAP
Trans Adriatic Pipeline

*İtaliyanın "Snam S.p.A." təbii qaz infrastruktur şirkəti səhmdarı olduğu və Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsinə 270 milyon avro sərmayə yatıracaq.*

Bu barədə "Snam"ın 2017-2021-ci illəri əhatə edən sərmayə planında deyilir.

Səh. 5

### XƏZƏR DƏNİZİNDƏ SƏYAHƏT ÜÇÜN DOQQUZ MARŞRUT TƏKLİF EDİR

*Dağıstan Xəzər dənizi ölkələri boyunca səyahət marşrutlarının açılmasına dair beynəlxalq layihəni Soçidə keçirilən Rusiya İnvestisiya Forumunda təqdim edəcək.*



Səh. 6

### AZƏRBAYCAN CÜDOÇULARI AVROPA KUBOKU YARIŞLARINDA 9 MEDAL QAZANIBLAR




*Antalyada yeniyetmələr arasında cüdo üzrə Avropa kuboku yarışlarına yekun vurulub.*

Səh. 8

# AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ TƏYİN OLUNMASI MÜNASİBƏTİLƏ XANIM MEHRİBAN ƏLİYEVANIN ÜNVANINA TƏBRİKLƏR GƏLMƏKDƏ DAVAM EDİR

***Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması münasibətilə bir sıra ölkələrin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, beynəlxalq təşkilatların, dövlət, elm və təhsil müəssisələrinin rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirlikləri, diplomatik korpusun təmsilçiləri tərəfindən təbriklər gəlməkdə davam edir.***

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasından Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanı Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenko, Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanov, Rusiya Rəssamlar Akademiyasının vitse-prezidenti, SSRİ-nin və Azərbaycanın Xalq Rəssamı, Sosialist Əməyi Qəhrəmanı Tahir Salahov, Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov, Rusiya Federasiyası Dağıstan Respublikasının Xalq Məclisinin sədri Xızrı Şıxsəidov, MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi Aleksey Sergeyev, Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçko, Rusiya Federasiyası Həştərxan Vilayətinin qubernatoru Aleksandr Jilkin, Rusiya Federasiyası Dövlət Dumasının deputatı Dmitri Savelyev, Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina, Rusiyanın TASS informasiya agentliyinin baş direktoru Sergey Mixaylov, Rusiya Federasiyası, "USM Holdinq" şirkətinin təsisçisi Alişer Usmanov, "ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun prezidenti İqor Makarov, Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Fazil Qurbanov təbrik ediblər.

Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım, Türkiyənin Bilkənd Universitetinin Rəyasət Heyətinin sədri Əli Doğramacı, Türk Dünyası Araşdırmaları Vəqfinin rəhbəri Közhan Yazqan xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.

Fransa Milli Assambleyasının üzvü, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan Fransua Mansel, Bolqarıstan Respublikasının Veliko Tırnovo şəhərinin meri Daniel Panov, Müqəddəs Kiril və Metodi adına Veliko Tırnovo Universitetinin rektoru Xristo Bonjolov, Macarıstanın Baş nazirinin xanımı Levai Aniko, Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi dövlət katibinin müavini Jolt Çutora da xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.

Həmçinin TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanov, Qərbi Avstraliya parlamentinin deputatı Liz Behjat, İsrail Dövlətinin Əmək Partiyasının sədri, müxalifət lideri İsaaq Hersoq, Böyük Britaniyadan Beynəlxalq Ticarət Sərgisinin regional direktoru Edvard Straçan, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam M.İshaqzai, Misir Ərəb Respublikasının "Əl- Əxbar" mətbuat evinin baş direktorunun müavini Əla Tofiq, Misir Ərəb Respublikasının ictimai-siyasi xadimi Mustafa Kamil, Misir Ərəb Respublikasının Mehriban Əliyeva adına Dillər məktəbinin kollektivi adından məktəbin müdiri Tələt Məhəmməd Əli, "Ümumukrayna Ağsaqqalları" İctimai Birliyinin sədri Anatoli Raxanski, Rumıniya Türkiyə İş Qadınları Dərnəyinin idarə heyətinin sədri Birgül Senyuva, Misir-Azərbaycan Dostluq Cəmiyyətindən, BP şirkətinin baş icraçı direktoru Robert Dadli, "Türkdilli Dövlətlərin Siyasətinə Dəstək" Fondunun prezidenti (Qırğızıstan) Nüsrət Məmmədov, "Palmali" şirkətlər qrupunun prezidenti Mübariz Mənsimov, "Ukrayna-Azərbaycan Dostluq" Təşkilatının rəhbəri Murad Ömərov, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrel, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Ramil Həsənov da xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.

Ölkənin dövlət, ictimai-siyasi, elm və təhsil müəssisələrindən Yeni Azərbaycan Partiyası 1 saylı ərazi ilk partiya təşkilatının sədri, Prezident Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə, insan hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira Süleymanova, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Cəmil Quliyev, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) baş direktoru Aslan Aslanov, Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Rüfət Aslanlı, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadə, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyev, Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin vəzifəsini müvəqqəti icra edən Vəli Hüseynov, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, "Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Fərəh Əliyeva, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslan, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, "Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyev, "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Hamlet İsaxanlı, xarici işlər naziri Elmar Məmmədyarov, Baş nazirin müavini İsmət Abasov, fövqəladə hallar naziri Kəmaləddin Heydərov, daxili işlər naziri Ramil Usubov, ədliyyə naziri Fikrət Məmmədov, iqtisadiyyat naziri Şahin Mustafayev, müdafiə sənayesi naziri Yavər Camalov, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva, Baş nazirin müavini Əli Həsənov, energetika naziri Natiq Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.



Bundan başqa, Azərbaycanın xarici ölkələrdəki səfirlikləri və diplomatik nümayəndəliklərindən - Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov, Azərbaycanın Rumıniyadakı səfiri Fərid Abdinbəyov, Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov, Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfiri Daşqın Şikarov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Azərbaycanın İspaniyadakı səfiri Anar Məhərrəmov, Azərbaycanın Rusiyanın Sankt-Peterburq şəhərindəki baş konsulu Sultan Qasımov da Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.

Həmçinin xarici ölkələrin Azərbaycandakı səfirlikləri və təmsilçiliklərindən – Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Qazaxıstanın Azərbaycandakı səfiri Beybit İsabayev, Avropa İqtisadiyyat Palatasının Azərbaycandakı nümayəndəliyinin prezidenti Nizami Piriyev, Türkiyə Radio-Televiziya Qurumunun (TRT) baş təmsilçisi Arslan Yıldıray və Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Camal Yanğın da xanım Mehriban Əliyevaya Birinci vitse-prezident təyin olunması münasibətilə təbrik məktubları göndəriblər.

Milli Məclisin deputatları - Fəttah Heydərov, Fəzail Ağamalı, Asim Mollazadə, Nəsib Məhəməliyev, Hadi Rəcəbli, Qüdrət Həsənquliyev, Tahir Kərimli, Əhliman Əmiraslanov və Jalə Əliyeva xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik edənlər sırasındadır.

Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov, Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İsmayılov, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev və İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev də təbrik ediblər.

Eyni zamanda, Azərbaycanın tanınmış incəsənət xadimləri – SSRİ-nin və Azərbaycanın Xalq Artisti Fidan Qasımova, Azərbaycanın Xalq Artisti Xuraman Qasımova, Azərbaycanın Xalq Artisti Yalçın Rzazadə, Əməkdar İncəsənət Xadimi, Kanadada Heydər Əliyev Mərkəzinin prezidenti Mikayıl Hacıyev, Xalq Artisti, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadə, Xalq Artisti Alim Qasımov, Xalq Artisti, "Qaya" Dövlət Ansamblının bədii rəhbəri Rauf Babayev, Xalq Artisti Şahnaz Haşımova, Xalq Artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli, Xalq Artisti, Akademik Milli Dram Teatrının direktoru Azər-Paşa Nemətov, Azərbaycan Dövlət Musiqili Teatrının direktoru Əliqismət Lalayev, Xalq Artisti Canəli Əkbərov, Xalq Artisti Arif Quliyev, Xalq Artisti, Azərbaycan Televiziyasının diktoru Həqiqət Əsgərzadə, Xalq Artisti Kamil Cəlilov, Əməkdar Artist Natiq Şirinov, Rus Dram Teatrının direktoru Ədalət Hacıyev və baş rejissoru Aleksandr Şarovski də xanım Mehriban Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə təbrik ediblər.

Həmçinin Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni, "İşgəncələrə Qarşı Azərbaycan Komitəsi"nin sədri Elşad Həmidov, "Yurddaş" partiyasının sədri Mais Səfərli, "Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin sədri Lyudmila Xəlilova, "Qarabağ" qəzetinin baş redaktoru Çingiz İsmayılov, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin direktoru Afaq Məsud, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru Emil Nəsirli və "Sahibkar Qadınlar" İctimai Birliyinin sədri Zemfira Ağayeva da xanım Mehriban Əliyevaya Birinci vitse-prezident təyin olunması münasibətilə təbrik məktubları ünvanlayıblar.

Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması münasibətilə xanım Mehriban Əliyevanın ünvanına təbriklər gəlməkdə davam edir.

# “GƏMİÇİLİK ÖLKƏMİZDƏ BEYNƏLXALQ KORPORATİV İDARƏETMƏ SİSTEMİNİ TƏTBİQ EDƏN İLK DÖVLƏT ŞİRKƏTLƏRİNDƏN BİRİDİR”













***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC (AXDG) fəaliyyətinin ilk günlərindən gəmiçilik sahəsində qabaqcıl təcrübənin, mütərəqqi metodların tətbiqinə, beynəlxalq standartların tələblərinə uyğun fəaliyyətin təşkilinə ciddi diqqət ayırır. Müasir korporativ idarəetmə sisteminin qurulması və Azərbaycan gəmiçiliyinin qabaqcıl beynəlxalq şirkətə çevrilməsi istiqamətində davamlı olaraq irimiqyaslı layihələr həyata keçirilir.***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də əməkdaşların fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi və fəaliyyətin nəticələrinə əsaslanan ödəniş sistemini özündə ehtiva edən Həvəsləndirmə və Mükafatlandırma Proqramının (Performance Based Remuneration System - KPİ) təqdimatı olub.

“AXDG” QSC sədrinin strateji inkişaf, investisiya layihələri və logistika üzrə müavini Fərhad Quliyev və strateji inkişaf və investisiya layihələri departamentinin rəisi Tariyel Mirzəyev Həvəsləndirmə və Mükafatlandırma sisteminin Gəmiçilikdə tətbiqi ilə bağlı məlumatla çıxış ediblər.

Bildirilib ki, Proqramın hazırlanması işlərinə Gəmiçilikdə ötən ildən başlanılıb. Belə ki, 2016-cı ilin iyulunda bu sahədə tanınmış beynəlxalq məsləhətverici şirkət olan “Ernst&-Young”-in Qazaxıstan ofisi dəvət edilib, AXDG-nin korporativ idarəetmə sistemi qiymətləndirilib və onun daha da təkmilləşdirilməsi üçün “Yol Xəritəsi” hazırlanıb. “Yol Xəritəsi”ndə bir sıra layihələrlə yanaşı, Həvəsləndirmə və Mükafatlandırma Proqramının hazırlanması da yer alıb. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2016-cı il tarixli Sərəncamına əsasən səhmlərinin nəzarət zərfi dövlətə məxsus şirkətlərdə fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi və fəaliyyətin nəticələrinə əsaslanan ödəniş sisteminin hazırlanması üzrə tapşırıq verilib.

Fəaliyyətin nəticələrinə əsaslanan ödəniş sisteminin tətbiqi üzrə Gəmiçilikdə “Həvəsləndirmə və Mükafatlandırma Siyasəti” hazırlanıb və 2 sentyabr 2016-cı il tarixində təsdiq edilib. Daha sonra, “Həvəsləndirmə və Mükafatlandırma Siyasəti”nə uyğun, Gəmiçiliyin strateji hədəflərinə və məqsədlərinə nail olmağa yönəlmiş balanslaşdırılmış “Fəaliyyətin Səmərəlilik Göstəriciləri” (KPİ-lar) sistemi işlənib hazırlanıb və 2017-ci ilin yanvar 1-dən Gəmiçilikdə tətbiq edilir.

Həvəsləndirmə və Mükafatlandırma Siyasəti əməkdaşların inkişafa stimullaşdırılmasına, əlavə səylərinin qiymətləndirilməsinə, Gəmiçiliyin strateji hədəf və məqsədlərinə nail olunmasına, aparılan əməliyyatların səmərəliliyinin və effektivliyinin artırılmasına, yüksəkixtisaslı kadrların “AXDG” QSC-yə cəlbi və saxlanılmasına yönəlib.

Təqdimatda çıxış edən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev xüsusi ilə vurğulayıb ki, əməkdaşların fəaliyyəti onlara şamil edimiş müvafiq korporativ və fərdi KPİ-lara il ərzində nail olunma dərəcəsinə əsasən qiymətləndiriləcək. Sədr bildirib ki, hazırda Gəmiçilik bu sistemi tətbiq edən ilk dövlət müəssisələrindəndir və beynəlxalq təcrübədə özünü müvəffəqiyyətlə doğruldub. Bu sistemin tətbiqi korportativ idarəetmə və inkişaf üçün olduqca əhəmiyyətlidir.

## İTALİYALI İŞ ADAMLARI GƏMİÇİLİKDƏ



***Bakıda səfərdə olan italiyalı iş adamlarının bir qrupu “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyevlə görüşüblər.***



İtaliya - Azərbaycan Ticarət Palatasının prezidenti xanım Manuela Traldi, “İCOG - Azərbaycan” şirkətinin baş direktoru Canluka Fatone və “Castalia” şirkətinin biznesin inkişafı üzrə meneceri Alessandro Vettori ilə görüşdə qonaqlara ölkəmizdə uğurla həyata keçirilən layihələr haqqında məlumat verilib. Rauf Vəliyev Gəmiçiliyin fəaliyyəti, beynəlxalq səviyyəli təsnifat cəmiyyətləri ilə əməkdaşlığı, eyni zamanda rəhbərlik etdiyi qurumun qısa müddətdə qazandığı uğurlardan söz açıb.

Bölgədə potensial və güclü tərəfdaş axtarışında olduqlarını deyən “Castalia” şirkətinin nümayəndəsi Alessandro Vettori qurumun əsas hədəflərini açıqlayıb. Dənizdə ətraf mühitin mühafizəsi, İMO standartlarına uyğun təlimlərin keçirilməsi və dənizçiliklə bağlı digər xidmətlər təklif edən şirkət rəsmisi Azərbaycanda da fəaliyyət göstərəcəklərini bildirib. Qonaq təmsil etdiyi şirkətin donanmasına məxsus 36 gəminin hazırda Aralıq dənizi sularında üzdüyünü də diqqətə çatdırıb.

## “ZIĞ” QURU YÜK LİMANI FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR



***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin "Zığ" quru yük limanı fəaliyyətini beynəlxalq standartlara uyğunlaşdırır. Hazırda 6 ha sahəyə malik liman tamamilə abadlaşdırılır, ərazi və körpülər betonlaşdırılır, qaldırıcı qurğular - kran və avtoyükləyicilər yenilənir. Bütün bu işlər limanın dövriyyəsini artırmağa yönəldilib. Nəzərdə tutulan işlər başa çatdırıldıqdan sonra yükaşırma müəssisəsi həm də logistik mərkəz rolunu oynayacaq.***



Xəzər dənizinin qərb sahilində yerləşən və 7 körpüyə malik “Zığ”quru yük limanının əsas üstünlüyü mərkəzə yaxın olmasıdır. Dəmiryolu xəttinin körpünün yaxınlığından keçməsi onun əlverişliliyini daha da artırır. Bu, yüklərin vaqonlardan gəmilərə və ya gəmilərdən vaqonlara vurulması prosesini asanlaşdırır. Eyni zamanda, limanın böyük tutumlu anbarı var. Yükaşırma müəssisəsində gömrük və sərhəd keçid məntəqələrinin fəaliyyət göstərməsi isə müştərilərin işini yüngülləşdirmək baxımından əhəmiyyətlidir.

“Zığ” quru yük limanında əməyin mühafizəsinə də xüsusi diqqət yetirilir. Müəssisədə təhlükəsizlik qaydaları qabaqcıl standartlara tam uyğunlaşdırılıb.

Bütün bu üstünlüklər limana tələbatı artırır. Mövcud imkanların genişləndirilməsinə yönəldilən tədbirlər isə yeni iş yerlərinin açılmasına imkan verəcək.

Qeyd edək ki, sözügedən ərazi əvvəllər Dəniz Nəqliyyat Donanmasının 57-ci körpüsü kimi tanınırdı. Yükaşırma müəssisəsinə liman statusu Azərbaycan Respublikası Dövlət Dəniz Adminstrasiyası tərəfindən ötən ilin aprelində verilib.

## HƏR BİR GƏMİÇİ DƏNİZDƏ YARANA BİLƏCƏK İSTƏNİLƏN ÇƏTİN VƏZİYYƏTƏ HƏMİŞƏ HAZIR OLMALIDIR














***Fevralın 24-də “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sədri Rauf Vəliyev qurumun Təlim-Tədris Mərkəzində olub.***

Gəmiçiliyin rəhbəri Təlim-Tədris Mərkəzində üzən heyət üçün keçirilən təlimlərlə maraqlanıb, dərs prosesini yaxından izləyib.

Kurslarda dənizçilərin peşə vərdişləri təkmilləşdirilir, onlara dənizdə yarana biləcək istənilən çətin vəziyyətə həmişə hazır olmağa dair biliklər aşılanır. Sədr Rauf Vəliyev təlim iştirakçılarının diqqətinə çatdırıb ki, bu gün hər bir dənizçinin gəmilərdə tətbiq olunan yeni texnologiyalardan xəbərdar olması və onlardan istifadə etmə bacarığı çox vacibdir.

Beynəlxalq konvensiyaların tələblərinə uyğun keçirilən təlimlərin sonunda imtahanı uğurla verən iştirakçılara sertifikatlar təqdim olunur. Kurs iştirakçıları Gəmiçiliyin rəhbərinə imtahanların şəffaf keçirildiyini bildiriblər. Rauf Vəliyev ölkəmizdə yalnız Gəmiçiliyin Təlim-Tədris Mərkəzinin malik olduğu gəmilərin mövqedə saxlanması trenajoruna da baxış keçirib.

Xatlırladaq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Təlim-Tədris Mərkəzi 2014-cü ildən fəaliyyət göstərir. Burda Gəmiçiliyin əməkdaşları ilə yanaşı, digər şirkətlərin nümayəndələri üçün də dənizçiliklə bağlı müxtəlif təyinatlı təlimlər keçirilir.

# DÜNYADA ƏN UCA ZİRVƏ ANADIR

## GÖZLƏRİNİZDƏN SEVİNC, ÜZÜNÜZDƏN TƏBƏSSÜM ƏSKİK OLMASIN

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev martın 7-də Gəmiçilikdə çalışan xanımları Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

*- Hörmətli xanımlar!*
*Əziz analar və bacılar!*

Sizi - zərif cinsin Gəmiçilikdə çalışan bütün nümayəndələrini ülvi varlıq olan qadına bəşəriyyətin məhəbbət və ehtiramını əks etdirən 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə uğurlar arzulayıram.

Yer üzünün taleyüklü problemlərinin həllinə zaman-zaman böyük töhfələr vermiş qadınlar bu gün də müasir dünyanın aydın səma altında dinc yaşaması və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Sədaqət və gözəllik rəmzi olan Azərbaycan qadınları da tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynamışlar. Adları tariximizin səhifələrinə qızıl hərflərlə - müdrik hökmdar, cəsur sərkərdə, istedadlı ədib, böyük alim... kimi yazılmış qadınlarımızla həmişə fəxr etmişik. Hər birimiz üçün çox qiymətli Vətən, torpaq, dil anlayışlarının ana adı ilə qoşa çəkilməsi də qadınlara verilən yüksək qimətin təzahürüdür.

Zamanın bütün sınaqlarından alnıaçıq çıxmış Azərbaycan qadınları bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası, iqtisadi tərəqqisi üçün fədakarcasına çalışırlar. Torpaqlarımızın bir qisminin erməni işğalı altında olduğu indiki dövrdə övladlarını Vətənə sonsuz məhəbbət ruhunda böyütmələri isə cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Analarımızın ucalığından xəbər verir.

Hazırda həyatımızın elə bir sahəsi yoxdur ki, orada qadınlar təmsil olunmasınlar. Ailədə qayğıkeş ana, sədaqətli həyat yoldaşı olan Azərbaycan qadınları seçdikləri sənətin də zirvəsini fəth etməyi bacarırlar. Bu da danılmaz həqiqətdir ki, öz istedad və bacarıqlarını üzə çıxarmaq üçün heç vaxt indiki qədər geniş imkanlara malik olmamışdılar. Qadınlarımıza həmişə böyük hörmət bəsləmiş, onların cəmiyyətdə layiqli yer tutmaları üçün istər sovet dövründə, istər müstəqillik illərində əlverişli şərait yaratmış Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyev cənabları eyni diqqət və qayğı ilə Azərbaycan xanımlarının ictimai mövqeyinin daha da möhkəmlənməsi üçün ardıcıl tədbirlər həyata keçirir. Müxtəlif sahələrdə fərqlənən qadınlarımızın dövlət mükafatlarına və fəxri adlara layiq görülməsi buna əyani sübutdur. Xanımlarımızın cəmiyyətdəki yeri və rolunun əsas göstəricisi, mübaliğəsiz, onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, fəal əmək fəaliyyəti ilə məşğul olmalarıdır.

Bugün bütün dünya Azərbaycanın birinci xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, milli dəyərlərimizin və mədəniyyətimizin böyük təbliğatçısı, ümummilli problemlərimizin beynəlxalq müstəviyə çıxarılmasında əvəzsiz xidmətlər göstərən Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının nəyə qadir olduğunun şahididir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin idarə, müəssisə və təşkilatlarında da dəniz nəqliyyatının inkişafına sanballı töhfələr verən yüzlərlə qadın çalışır. Gəmilərdə üzən, fırtınalar qoynunda mütəmadi səfərlərə çıxan dənizçi xanımların fədakarlığı isə hər cür tərifdən ucada durur.

Gözlərinizdən sevinc, üzünüzdən təbəssüm heç vaxt əskik olmasın, əziz xanımlar!

Bahar təravətli bayramınız mübarək!

***Rauf Vəliyev,***
***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"***
***Qapalı Səhmdar Cəmiyyətinin sədri***



## BİZ DƏ AZ SEVİNMƏDİK

***8 Mart - Beynəlxaq Qadınlar Günü ərəfəsində biz - Azərbaycan Dövlət Dəniz Akademiyasının bir qrup tələbəsi müəllimimiz Hacı Babayevin tövsiyəsi ilə Böyük Vətən müharibəsi veteranı Adilə xanım Ağakişiyevanın qonağı olduq.***

Kimdir Adilə xanım? Adilə Heydər qızı Ağakişiyeva 1926-cı ildə Naxçıvanda dünyaya göz açıb. 1941-ci ildə tibb texnikumunu bitirdikdən sonra cəbhəyə yolanıb. 512-ci alayın əlahiddə taborunda tibb bacısı kimi xidmət edib. Az sonra Ukraynaya köçürülən tabor şəhərlərin, kəndlərin, qəsəbələrin faşist işğalçılarından azad edilməsində qəhrəmanlıqla döyüşür. Adilə xanım həm də öz mehribanlığı, qayğıkeşliyi ilə əsgərlərimizin yaralarına məlhəm olur. Sinəsini bəzəyən 2-ci dərəcəli "Böyük Vətən müharibəsi" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində Qələbəyə görə", "Ukraynanın azad edilməsinə görə"... medalları da xalqımızın bu igid qızının qanlı-qadalı illərdəki şücaəti barədə çox şey deyir.

İkinci Cahan savaşından sonra bir müddət 1 saylı şəhər kliniki xəstəxanasında tibb bacısı işləyən Adilə xanım, sonralar əmək fəaliyyətini Səhiyyə Nazirliyinin 1 saylı poliklinikasında davam etdirib.

Şərəfli ömür yaşayan Adilə xanım bu gün də işsiz dayana bilmir. Səbail rayonunun Veteranlar Şurasında daimi qadın komissiyasının sədri kimi isə fəaliyyətindən razıdırlar.

Yaşlıların hər şeydən çox diqqətə ehtiyacları olduğu sirr deyil. Doxsan bir yaşlı müharibə veteranına məhz bayram ərəfəsində baş çəkməyimiz ağbirçək xanımı duyğulandırdı. Sevincini gözlərindən də oxumaq çətin deyildi. Amma hardan biləydi ki, bu görüşdən biz tələbələr daha çox məmnun qaldıq.

***Mənsur Cümşudov,***
***Azərbaycan Dövlət Dəniz***
***Akademiyasının***
***193R qrup tələbəsi***



## CƏMİYYƏTİN BƏZƏYİ VƏ QORUYUCU MƏLƏKLƏRİ

***Barmağıma tikan batdı,***
***Ana ürəyi qanadı.***
***Deyir göydəki Allah da:***
***"Yerdəki tanrın anadır."***

Bu misraları nə vaxt yazdığım yadıma düşmür. Bildiyim təkcə odur ki, bütün analar övladlarının barmağına bircə tikanın da batmaması üçün canlarını fəda etməyə hazırdırlar.

Bu da alman şairi İohann Çillerin sözüdür: "Dünyanı yaşayış üçün yararlı hala salan qadınlardır."

Bəli, qadınlarsız cəmiyyət ola bilməz, həyat ola bilməz. Qadınlar cəmiyyətin bəzəyi və qoruyucu mələkləridir.

Gözümüzə dəyən və dəyməyən, gördüyümüz və görə bilmədiyimiz nə varsa, Yaradan yaradıb. Yaradanın bəşəriyyətə ən gözəl, ən dəyərli, əvəzsiz ərməğanıdır ana! Bəzəyini könlünün xoş vaxtında vurub Allah!

Müqəddəs saydığımız, səcdəsində durduğumuz varlıqlar az deyil. Müqəddəslərin ən müqəddəsidir ana.

Kim ölçüb, nə ilə ölçüb, necə ölçüb, deyə bilmərəm, Everest də inciməsin, yer üzündə ən yüksək, ən uca zirvə Anadır.

İncələrin ən incəsi, kövrəklərin ən kövrəyi, zəriflərin ən zərifidir ana. İncə, kövrək, zərif olduqları qədər də güclüdür analar.

Cənnətin anaların ayaqları altında olduğuna inananların yeri cənnətdir. Başımızın tacının qədrini bilək. Qoruyaq onları. Dərdi, qəhəri, qüssəni analara yaxın buraxmayaq.

Bütün anaların arzuları bir-birinə bənzəyir. Sülh və əmin-amanlıq arzuları isə övladlarını xoşbəxt görmək istəyindən doğur.

Qadınlar Allah və cəmiyyət qarşısında öz məsuliyyətlərini biz kişilərdən bəlkə daha çox dərk edirlər. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlayıblar, ən mürəkkəb, ən çətin dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olublar. Bu gün Azərbaycan qadını deyəndə gözəl ana, sədaqətli ömür-gün yoldaşı və ümubəşəri ideallara sadiq layiqli vətəndaş anlaşılır. Anaların ən böyük xidməti isə varlığımızın anası saydığımız torpaqlarımızı qoruyan, onun yolunda canından keçməyə hazır olan övladlar böyütmələridir.

Üzərinə düşən sosial yükün ağırlığına baxmayaraq, xanımlarımız həmişə əzmkar olmuş, çətin günlərimizdə əsl dəyanət nümayiş etdirmişlər. Ulu Öndər Heydər Əliyev demişdir: " Azərbaycanda qadınlar da öz ağıllarına, biliklərinə, istedadlarına görə dünya qadınları içərisində özünəməzsus yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik."

Bəli, vəfanın, etibarın, sədaqətin rəmzidir mənəvi təbiətinə həmişə sadiq Azərbaycan qadını! Adının ucalığını bütün dövrlərdə ləyaqətlə qoruyub. Milli-əxlaqi dəyərlərimiz məhz analarımızın fədakarlığı sayəsində ən çətin sınaqlardan uğurla çıxmışdır.

Azərbaycan qadını deyəndə yadıma qədim yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud"-da qəhrəmanlıqlarından dönə-dönə söz açılan Burla xatun, Banu Çiçək, Selcan xatun düşür.

Azərbaycan qadını deyəndə yadıma ömür-gün yoldaşları ilə birlikdə zalımlara qan udduran Koroğlunun Nigarı, Nəbinin Həcəri düşür.

Azərbaycan qadını deyəndə yadıma İran şahı Kirin Azərbaycana hücümunun qarşısını almaq üçün müdriklik və mətanət göstərən Massaget hökmdarı Tomris düşür.

Azərbaycan qadını deyəndə yadıma böyük fateh makedoniyalı İsgəndəri dünya malı üçün qan tökməkdən çəkindirməyə çalışan Bərdə hökmdarı Nüşabə düşür.

Azərbaycan qadını deyəndə yadıma XIII əsrin əvvəllərində Xarəzmşah Cəlaləddinin Azərbaycana hücümu zamanı Təbriz, Xoy, Naxçıvanın işğaldan azad olunmasında böyük hünər göstərən Mehrican xatun düşür.

Azərbaycan qadını deyəndə yadıma ərinin və oğlanlarının hakimiyyəti dövründə böyük siyasi nifuza malik Atabəy Şəmsəddin Eldəgəzin xanımı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası Möminə xatun düşür.

Azərbaycan qadını deyəndə yadıma ərinin döyüşdə öldürülməsinə inanmayan və doqquz ay düşməni Dərbəndə buraxmayan Quba xanı Fətəli xanın arvadı Tuti Bikə düşür...

Azərbaycan qadınları bu gün cəmiyyətimizin tam hüquqlu üzvləri kimi ölkənin sosial, iqtisadi və ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Dövlət Statistika Komitəsin məlumatına görə, cari ilin yanvar ayının əvvəlinə ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 78,1 faizi, orta ixtisas təhsil müəssisələrində 76,1 faizi, ali təhsil müəssisələrində 51,9 faizi, həkimlərin isə 64,9 faizi qadınlardır.

Elmin inkişafında da qadınların müstəsna rolu var. Belə ki, elmi işçilərin 53,3 faizini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktoru, həm də fəlsəfə doktoru elmi dərəcəsi olan qadınların sayı 2,2 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 4-ü, müxbir üzvlərindən isə 14-ü qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi ilkin məlumatlara əsasən 28,7 faiz, sahibkarlar arasında isə 20,9 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 40,2 faizini də qadınlar təşkil edir.

Bundan başqa, ümumi təhsil müəssisələrində şagirdlərin 46,5 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 66,4 faizi və ali təhsil müəssisələrinin tələbələrinin 48,3 faizi qızlardır.

İstedad və bacarıqlarını tam gerçəkləşdirə bilmələri üçün hər cür şərait yaradılan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin həyatını da xanımlarsız təsəvvür etmək mümkün deyil. Gəmiçiliyin çoxşaxəli və mürəkkəb təsərrüfatında yüzlərlə qadın çalışır. Başqa sözlə, bu gün elə bir idarə, müəssisə və təşkilatımız yoxdur ki, onun inkişafında qadınlar yaxından iştirak etməsinlər. Fırtınalar qoynunda mütəmadi səfərlərə çıxan dənizçi xanımların iradəsi, dözümü və peşəyə bağlılığı isə hər kəsdə heyranlıq doğurur.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti var.

Bu fikir Prezident İlham Əliyevin 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikində yer alıb.

Təbrikdə deyilir ki, ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə ediblər. Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atıblar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş edib. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adı ilə bağlıdır.

Dövlətimizin başçısı təbrikdə bildirir ki, ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirib. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgi ilə dolu, vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişib. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

"İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız", - deyə Azərbaycan Prezidentinin təbrikində vurğulanır.

Bütün həyatınız boyu üzünüz gülsün gözümüzün nuru, ömrümüzün mənası, dünyanın bəzəyi və əbədi gözəlliyi olan analar!

***Rasif TAHİROV***

## ANALAR

***Ümidlə yaşayar, ümidlə gülər,***
***Hamıya səadət, xoşbəxtlik dilər.***
***Dünyada hər şeyin yerini bilər,***
***Göz yaşı bilməsin təki analar.***

***Sözünü həmişə söyləyər elə,***
***Kimsə danlağından inciməz belə.***
***Səbri göylər qədər, dözümü ilə***
***Allahın yerdəki ərki analar.***

***İnciməz, arası olmaz küsüylə,***
***Öyünər övladı – oğlu, qızıyla.***
***Bircə təbəssümü, bir gülüşüylə***
***Qovar uzaqlara qəmi analar.***

***Oxuyar sözsüz də ürəyimizi,***
***Qoruyar ilahi sevgiylə bizi.***
***Biz çəkə bilmirik öz yükümüzü,***
***Bir nəslin yükünü çəkir analar.***

***Duası qoruyur bizi bəladan,***
***Eşidir həmişə onu Yaradan.***
***Sağalır sözüylə çox vaxt yara da,***
***Sözü də, özü də həkim analar.***

***Rasif İMANOĞLU***

## DƏNİZ NƏQLİYYATI İLƏ DAŞINAN YÜKLƏRİN 94,1 FAİZİNİ TRANZİT YÜKLƏR TƏŞKİL EDİB

***Dəniz nəqliyyatı ilə 2017-ci ilin yanvar ayında daşınmış yüklərin həcmi 641,1 min ton təşkil edib və əvvəlki ilin müvafiq dövrünə nisbətən 51,3 faiz artıb. Yüklərin 38,9 faizini neft yükləri təşkil edib.***

Dəniz limanlarında 894,7 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib. Yüklərin 842,3 min tonunu və ya 94,1 faizini tranzit yüklər təşkil edib. 2017-ci il fevral ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 32,9 min ton ixdal yükləri olub.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 20 faiz artaraq 1,2 min nəfər olub.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNUN TİKİNTİSİ BAŞA ÇATIR



***Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatır.***

Bu barədə Gürcüstan mətbuatı Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Əhməd Arslana istinadən məlumat yayıb.

Nazir deyib ki, Qars və ümumilikdə bütün regionun xilasına səbəb olacaq layihənin reallaşdırılması prosesi artıq yekunlaşır.

O qeyd edib ki, rəsmi Ankara bu yolun Naxçıvana, sonradan isə İrana və Pakistana qədər uzadılmasını təklif edir. Nazir deyib: "Bu məsələ bir neçə gün əvvəl İslamabada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində də diqqət mərkəzində olub. Türkiyə tərəfinin Sammit çərçivəsində keçirdiyi görüşlərdə 10 ölkənin liderləri Bakı-Tbilisi-Qars və Qars-İğdır-Naxçıvan dəmir yolunun yaxın vaxtlarda istifadəyə verilməsinə cəyinə əminlik ifadə ediblər.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanmış dövlətlərarası saziş əsasında tikilir.

*Xətayi Əzizov*



## 33,5 MİLYON TON XAM NEFT CEYHAN LİMANINDA 313 TANKERƏ YÜKLƏNİB

***Keçən il Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə təqribən 33,5 milyon ton (251 milyon barrel) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 313 tankerə yüklənib.***

"BP-Azerbaijan" şirkətindən verilən məlumata görə, 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyununda istismardadır. Həmin vaxtdan 2016-cı ilin sonunadək BTC ilə ümumilikdə təxminən 2,61 milyard barrel (349 milyon ton) xam neft nəql olunub və Ceyhan limanında 3 min 425 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Türkmənistan və Qazaxıstan nefti də nəql olunur.

Ötən il BTC üzrə əməliyyat xərclərinə təqribən 118 milyon dollar, əsaslı xərclərə isə 58 milyon dollar sərf edilib.

"BTC Ko."nun səhmdarları belədir: BP (30,10 faiz), "AzBTC" (25,00 faiz), "Chevron" (8,90 faiz), "Statoil" (8,71 faiz), TPAO (6,53 faiz), "ENI" (5,00 faiz), "Total" (5,00 faiz), "Itochu" (3,40 faiz), "Inpex" (2,50 faiz), "CIECO" (2,50 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz) şirkətləridir.

## BORCA GÖRƏ TANKERİN HEYƏTİ ƏSİR GÖTÜRÜLÜB




***Türkiyə bayrağı ilə üzən "M/t Hacı Telli" adlı neft tankeri Liviyanın "Zuvarah" limanından 2 mil aralıda saxlanılıb və heyət əsir götürülüb.***

"enerjienstitusu.com" xəbər verir ki, "Transpasifik Dənizçilik" şirkətinin mülkiyyətində olan "M/t Hacı Telli" adlı neft tankeri fevralın 11-də Türkiyənin Tuzla şəhərindən Maltaya doğru yola çıxıb. Aralıq dənizində hərəkət edən zaman gəminin birinci kapitanı Nejat Ülerə tanker sahibi olan "Transpasifik Dənizçilik" şirkəti tərəfindən gəminin icarəyə götürüldüyü və marşrutunun Liviyanın "Zuvarah" limanı olduğu deyilib.

Tanker fevralın 24-də "Zuvarah" limanına lövbər salıb. Lakin tankerə neft yüklənməyib. Daha sonra gəmini icarəyə götürən şəxs və onun liviyalı şərikindən pulların almadıqlarını deyən silahlı dəstə tərəfindən 1 heyət üzvü əsir götürülüb. Qalan heyət üzvləri isə "Zuvarah" limanından 2 mil aralıda silahlı 6 nəfərin nəzarətində girov saxlanılır.

Liviyalı silahlı dəstə gəmini icarəyə götürən şəxs və onun şərikinin daha əvvəl aldıqları neftin qarşılığında 433 min dollar ödəməli olduğunu bildiriblər. Buna görə də gəmini saxladıqlarını bildirən silahlı dəstə əgər həmin vəsait ödənilməsə heyət üzvlərini əsir saxlayacaqlarını və tankeri də hissələrə bölüb satacaqlarını deyib.

Gəmini icarəyə götürən liviyalı iş adamının isə 433 min dollarlıq borcunun 280 min dollarını ödədiyi, ancaq heyət üzvlərini girov götürən şəxslərin borcun tam şəkildə ödənilməsini tələb etdikləri bildirilir.

## AZƏRBAYCANIN TRANZİT İMKANLARI "TRANSXƏZƏR - ŞƏRQ-QƏRB TİCARƏT-TRANZİT DƏHLİZİ" FORUMUNDA TƏQDİM OLUNUB






***Gəmiçilik rəsmisinin təqdimatı forumda maraqla qarşılandı***

Azərbaycanın tranzit-nəqliyyat imkanları fevralın 28-də Pekində keçirilən "Transxəzər - Şərq-Qərb ticarət və tranzit dəhlizi" forumunda təqdim olunub. Ölkəmizin Pekindəki səfirliyinin təşəbbüsü ilə keçirilən tədbir Çin tərəfini, o cümlədən yükdaşımalar ilə məşğul olan şirkətləri Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, onun əlverişli imkanları barədə məlumatlandırmaq məqsədi daşıyıb.

Forumda çıxış edən Çin Kommersiya Nazirliyinin Departament direktoru Luo Veydun ölkəsinin İpək yolu üzərində yerləşən dövlətlər ilə, o cümlədən Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verdiyini, bu çərçivədə əlaqələndirmənin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycanın Çindəki müvəqqəti işlər vəkili Mətin Mirzə ölkəmizin təşəbbüsü və liderliyi ilə həyata keçirilən enerji və nəqliyyat layihələrinin regional əməkdaşlıq baxımından əhəmiyyətindən danışıb. Azərbaycan ilə Çin arasında əlaqələrin dövlətimizin başçısı İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə dövlət səfərindən sonra yeni mərhələyə qədəm qoyduğunu deyən diplomat səfər zamanı imzalanan sənədlər arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunun olduğunu xatırladıb.

Tədbirdə çıxış edən Gürcüstanın Pekindəki səfiri, Gürcüstan və Qazaxıstan səfirliklərinin diplomatları nəqliyyat-logistika sahəsində əməkdaşlıq imkanlarının müzakirəsi baxımından forumun əhəmiyyətini vurğulayıblar.

Forumda çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvləri – Elçin Əhmədov (Azərbaycan Respublikası Yükdaşımalar üzrə Koordinasiya Şurası), Tariyel Mirzəyev ("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC), Tural Əliyev ("Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC), Natiq Cəfərov ("Azərbaycan Dəmir Yolları" QSC), Fərid Vəliyev (Dövlət Gömrük Komitəsi), Fuad Əhmədov (SOCAR) və Zaur Məmmədov (Sumqayıt Kimya-sənaye Parkı) ölkəmizin nəqliyyat-tranzit potensialı, logistika imkanları, yükdaşımaları sahəsində yaradılan sərfəli şərait, Azərbaycanın liderliyi ilə həyata keçirilən regional enerji və nəqliyyat layihələri, habelə ölkəmizdəki əlverişli biznes və investisiya mühiti barədə məlumat veriblər. Bildirilib ki, coğrafi mövqe baxımından bir neçə nəqliyyat dəhlizinin qovuşuğunda yerləşən Azərbaycanın öz tranzit imkanlarından istifadə etməklə Çin Xalq Respublikasının Sədri Si Cinpinin "İpək Yolu İqtisadi Kəməri" təşəbbüsünün reallaşmasında mühüm rol oynayır.

Bildirilib ki, hazırda ticarət dövriyyəsi 500 milyard dollar olan Çin və Avropa arasında yükdaşımalarında Şərq-Qərb marşrutundan və onun tərkib hissəsi olan Azərbaycanın nəqliyyat-tranzit imkanlarından istifadə edilməsi vaxt və maliyyə baxımından daha sərfəlidir. Bu istiqamətdə cari ildə inşası başa çatacaq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyəti böyükdür.

Tədbirə Çinin müvafiq dövlət qurumlarından, o cümlədən Kommersiya və Nəqliyyat nazirliklərindən, Dəmir Yolu Administrasiyasından, işgüzar dairələrindən 100-ə yaxın iştirakçının qatılması Çin tərəfinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna marağının böyük olmasını göstərib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin strateji inkişaf və investisiya layihələri departamentinin rəisi Tariyel Mirzəyev forumda Gəmiçiliyin donanması, Xəzərdə onun əhəmiyyəti, bölgədə həyata keçirilən irimiqyaslı layihələr, Şərq-Qərb daşımalarında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bərə donanmasının mühüm rolundan ətraflı söz açıb. Forum iştirakçılarına Gəmiçiliyin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda tikiləcək 2 yeni Ro-Pax tipli unikal gəmi-bərələr haqqında məlumat verən Gəmiçilik rəsmisinin təqdimatında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşınan konteynerlər, onların həcmi və proqnozlaşdırılan yük artımına da xüsusi diqqət yetirilib. Maraqla qarşılanan təqdimatdan sonra B2B formatında danışıqlar aparılıb, gələcək biznes imkanları müzakirə edilib.

Marşrut üzərində yerləşən digər ölkələrin müvafiq qurumlarının nümayəndələrinin təqdimatlarla çıxış etdikləri forumda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna dair film də nümayiş olunub.

## YEDDİ TƏRƏFİN İŞTİRAKI İLƏ YÜKDAŞIMLARIN HƏYATA KEÇİRİLMƏSİ ÜÇÜN ŞƏRTLƏR MÜZAKİRƏ OLUNUB





***Ələt-Aktau-Ələt və Ələt-Kurık-Ələt istiqamətlərində dəmir yolu və bərələrlə yükdaşımaların həyata keçirilməsi üçün şərtlər müzakirə olunub. Bu məqsədlə Qazaxıstan Dəmir Yolları, Gürcüstan Dəmir Yolları, "Azərbaycan Dəmir Yolları" QSC, Aktau Beynəlxalq Dəniz Ticarət Limanı, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nümayəndələri arasında görüş keçirilib. Fevralın 27-28-də Qazaxıstanın Aktau şəhərində baş tutan görüşdə yükdaşımalar zamanı tərəflərin qarşılıqlı münasibəti və məsuliyyəti, daşımaların davamlılığının təmini zamanı ortaya çıxa biləcək maneələr və həlli yolları əsas müzakirə predmetləri olub.***

İki günlük görüşün nəticəsi olaraq protokol imzalanıb. Protokolda tərəflərin məsuliyyəti, məlumat mübadiləsinin formaları və təmin edilməsi ilə bağlı mühüm məsələlər əksini tapıb. Tərəflər Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu üzrə daşınan vaqonların gəmilərin texniki xüsusiyyətlərinə uyğun olması barədə müştərilərin məlumatlandırılması haqqında üzərlərinə öhdəlik götürüblər. Sənəddə daşınan yüklərin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilərin texniki vasitələrinə uyğunluğunun təmin edilməsi də yer alıb.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşınan yüklərdə aparıcı rol oynayır. Xəzər dənizində yeganə bərə operatoru olan Gəmiçiliyin donanmasında bu tip 13 gəmi mövcuddur.




## TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTUNA QOŞULA BİLƏR

***Özbəkistan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TBNM) qoşula bilər.***

Bu barədə məlumat "Qazaxıstan Dəmir Yolları" milli şirkətinin saytında yer alıb.

Məlumatda bildirilir ki, Daşkənddə səfərdə olan şirkətin prezidenti Kanat Alpısbayevin "Özbəkistan Hava Yolları" SC-nin rəhbərləri ilə danışıqları zamanı dəmir yolu nəqliyyatı sahəsində qarşılıqlı əlaqələrin gələcək inkişafı məsələləri müzakirə edilib.

Tərəflər "Qazaxıstan Dəmir Yolları"nın inkişafına böyük diqqət ayırdığı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə Aktau və Kurık limanları vasitəsilə özbək ixrac və idxal daşımalarının təşkili imkanını müzakirə ediblər.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçir və Avropaya uzanır.

## GƏNCLƏRƏ BAKI LİMANININ FƏALİYYƏTİ BARƏDƏ MƏLUMAT VERİLİB






***"İrəli" İctimai Birliyinin fəal gənclərinə Bakı Limanının fəaliyyəti barədə məlumat verilib.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib ki, məlumatlar "İrəli" İctimai Birliyinin bir qrup fəal gəncinin Ələt qəsəbəsində tikilməkdə olan yeni Bakı Limanına səfəri zamanı verilib.

Limanın ərazisi ilə əyani tanış olan gənclərə Bakı Limanının ölkəmizin nəqliyyat-tranzit potensialı və logistika imkanlarına verəcəyi töhfə barədə ətraflı məlumat verilib. Eyni zamanda liman əməkdaşı qonaqlara yaradılacaq Azad Ticarət Zonasının ölkəmiz üçün yaradacağı əlverişli biznes və investisiya mühiti barədə məlumat verib.

Daha sonra isə Bakı Limanının nümayəndəsi qonaqların suallarını cavablandırıb.

"İrəli" İctimai Birliyi dövlət gənclər siyasətinin inkişafına dəstək ola biləcək hər bir gəncin bütün sahələrdə təşəbbüslərini stimullaşdırmaq, ölkə maraqlarını qoruyan və gənclər siyasətinin inkişafında yaxından iştirak edən vətəndaş cəmiyyətinin formalaşmasında iştirak etdirən qeyri-hökumət təşkilatıdır.

## XVI XƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT, TRANZİT VƏ LOGİSTİKA SƏRGİSİ KEÇİRİLƏCƏK

***Aprelin 26-28-də Bakı Ekspo Mərkəzində XVI Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika "TransCaspian/Translogistica 2017" sərgisi keçiriləcək. "Iteca Caspian" şirkətindən bildirilib ki, dəmiryol sektoru, dənizçilik sənayesi, aviasiya, kommersiya təyinatlı nəqliyyat və nəqliyyat-logistika xidmətləri sahəsində əsas dövlət strukturları ilə yanaşı, kommersiya təşkilatlarını da bir araya toplayan "TransCaspian/Translogistica 2017" sərgisi Xəzəryanı regionun aparıcı nəqliyyat tədbiridir.***

TransCaspian Translogistica

Sərgidə nəqliyyat sahəsi üzrə məhsul və xidmətlərin geniş çeşidi - dəniz və dəmir yolları vasitəsilə yükdaşımalar, lokomotivlər, sərnişin və yük vaqonları, hərəkət heyətinin təmiri, dəmiryol nəqliyyatı üçün avadanlıq və komponentlər, gəmiqayırma və gəmi təmiri, dəniz limanları və liman xidmətləri, kommersiya təyinatlı nəqliyyat vasitələri üçün komponentlər və digər istiqamətlər təqdim olunacaq.

Sərgidə kommersiya şirkətləri ilə yanaşı, "Azərbaycan Dəmir Yolları" QSC, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası və Ukrayna Dəmir Yolları İdarəsi kimi dövlət nəqliyyat strukturları da iştirak edəcəklər.

Sərgi proqramı çərçivəsində "AVP Texnologiya" MMC, "RIRTCD" ASC ilə birlikdə "Lokomotiv təsərrüfatı üçün qabaqcıl texnologiyalar" mövzusunda seminar təşkil edəcək. "Rusaqrotrans" ASC şirkəti isə öz stendində taxıl yüklərinin Rusiyadan Azərbaycan, İran, Gürcüstan və Türkiyə istiqamətlərində daşınması üzrə təqdimat keçirəcək.

"TransCaspian/Translogistica 2017" sərgisi VII Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" və IV Xəzər Beynəlxalq Kater və Yaxtalar "CIBS 2017" sərgiləri ilə eyni meydançada keçiriləcək.

# ADDA-NIN REKTORU: "YAXŞI DƏNİZÇİYƏ TƏLƏBAT HEÇ VAXT AZALMAYACAQ"

*Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) rektoru Çingiz Əliyevlə müsahibə*



**– Çingiz müəllim, söhbətimizə Azərbaycan Dövlət Dəniz Akademiyasına maraqdan başlamaq istəyirəm.**

– Akademiyaya təxminən il yarımdır rəhbərlik edirəm. Rektorluqdan əvvəl isə bir müddət burada prorektor işləmişəm. Təcrübəmdən deyə bilərəm ki, Akademiyamızda təhsil almaq istəyən gənclərin sayı ildən-ilə artır. Təbii ki, bunda professor-müəllim heyətimizin də əməyi az olmayıb. Məsələn, keçən il ilk dəfə 25 əməkdaşımızı ayrı-ayrı bölgələrə ezam etdik. Onlar orta məktəblərdə X-XI sinif şagirdlərinə Akademiyamız haqqında ətraflı məlumat verirdilər. Hətta, bu prosesə özüm də qoşulmuşdum. Oxuduğum məktəblə yanaşı, paytaxtın ayrı-ayrı təhsil ocaqlarında təbliğat aparırdım. Eyni zamanda , Akademiyamızla bağlı video materiallar hazırlayıb, ayrı-ayrı yerlərdə təqdim edirik. Bunlar özlüyündə ADDA-ya marağı artırır.

**– Niyə, məhz Azərbaycan Dövlət Dəniz Akademiyası? Yəni, Akademiyada təhsilin hansı üstünlükləri var?**

– Ən əvvəl onu deyim ki, ADDA-da tələbələrin yüksəkixtisaslı kadrlar kimi yetişməsi üçün hər cür şərait yaradılıb. Akademiyamızda müasir standartlara uyğun kompüter mərkəzi, poliklinika var. Azərbaycan, rus və ingilis dillərində 80000-nə yaxın dərslik və dərs vəsaiti, elmi, bədii ədəbiyyatla zəngin kitabxanamız gələcəyin dənizçilərinin ixtiyarındadır. Tələbələrə pulsuz səhər və nahar yeməyi verilir. Onlar forma və yataqxana ilə təmin olunurlar. Hər il ilk dərs günündə isə birinci kurs tələbələrinə dərs vəsaitləri hədiyyə edirik.

**– Dənizçilik peşəsinin perspektivi barədə nə deyə bilərsiniz?**

– İndi həm dövlətimiz, həm də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC donanmaların daha müasir gəmilər hesabına zənginləşməsinə xüsusi diqqət yetirir. Gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunan gəmilər isə daha bilikli kadrlar tələb edir. Bir də, nə qədər ki, Xəzər var, donanmamız da olacaq. Deməli, yaxşı dənizçiyə tələbat də heç vaxt azalmayacaq.

**– Bütün bunlarla yanaşı, dənizçi olmaq həm də maraqlı bir işlə məşğul olmaq deməkdir…**

– Bəli, dənizin özünəməxsus romantikası var. Bunu dənizçilər çox yaxşı bilirlər. Bundan başqa, yeni ölkələr, yeni mədəniyyətlər… Dünya isə gör-götür dünyasıdır. Ayrı-ayrı ölkələrin limanlarına səfərlər zamanı özün üçün çox şey öyrənə bilərsən. Yeri gəlmişkən deyim ki, dənizçilik həm də çox məsuliyyətli peşədir. Kapitan isə heyət, gəmi və yük üçün birbaşa cavabdehdir. Dəniz ən xırda səhvi belə bağışlamır. Ona görə, dənizçi peşəsi həm də yüksək peşəkarlıq tələb edir.

**– Peşəkarlıq üçün təcrübə çox vacibdir. Təcrübə qazanmaq üçün hansı imkanlar mövcuddur?**

– "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyevin göstərişi ilə "General Əsədov" gəmisi ADDA üçün ayrılıb. Tələbələr gəmi ilə gündə iki saat dənizə çıxırlar. Gəmidə onlara həm nəzəri, həm də təcrübü dərslər keçirilir. Prosesin keyfiyyəti üçün tələbələrin sayının az olmasına çalışırıq. Onları gəmilərə elə yerləşdiririk ki, kapitanlar və baş mexaniklərin öyrətməyə vaxtı çatsın. Biz "Caspian Marine Services"-in Topaz şirkəti ilə də əməkdaşlıq edirik. Müqavilə əsasında tələbələri ora təcrübəyə göndəririk. Ümumiyyətlə, təkcə tələbələr deyil, müəllimlərin də təcrübəsi bizim üçün vacibdir. Çalışırıq ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin yüksəkixtisaslı mütəxəssislərini tədris prosesinə cəlb edək. Təhsilin səviyyəsini daha da artırmaq üçün keçən il bir qrup müəllim Sankt-Peterburq şəhərindəki A. Makarov adına Dənizçilik Akademiyasına göndərildi. Onlar tədris proqramlarını öyrəndilər. Sonra bizdəki təhsil həmin akademiyanın tədris prosesinə uyğunlaşdırıldı. Bilirsiniz ki, son vaxtlar tədris Avropa standartlarına uyğun "Baloniya" sistemi ilə aparılır və "excange" proqramı tətbiq edilir. Biz də tədris üsulunu dəyişdik ki, həmin proqramla tələbələri xarici universitetlərə göndərə bilək. Akademiyamız fəaliyyət göstərdiyi illər ərzində istər tədrisdə, istərsə də elmi araşdırmalarda çox böyük uğurlar qazanıb. Gəmiçiliyin donanması yeni və müasir gəmilər hesabına zənginləşdikcə, Akademiyanın tədris prosesi də yeni trenajorlarla təmin edilir və laboratoriya şəbəkəsi genişləndirilir.









**– Hər tələbə üçün təhsil aldığı ali məktəbin beynəlxalq əlaqələri və qazandığı uğurlar da maraqlıdır…**

– Azərbaycan Dövlət Dəniz Akademiyası 2000-ci ilin yanvarında Beynəlxalq Dəniz Təşkilatının dəniz təhsili məktəbləri kataloqunda 012 nömrəsiylə qeydiyyatdan keçib. Bu ilin mayında yenidən beş illik yoxlamadan keçəcəyik. Hazırda Akademiyanın verdiyi diplom və sertifikatlar 130-dan çox ölkədə tanınır. 2002-ci ilin oktyabrında Akademiya dənizçi mütəxəssislərin hazırlanması sahəsində keyfiyyətin menecmenti sistemi üzrə İSO 9001-2000 Beynəlxalq standartına uyğun sertifikata layiq görülüb. Ötən il isə Dəniz Universitetləri Beynəlxalq Assosiasiyasının üzvü olmuşuq. İndi biz MDB ölkələrinin və digər xarici dövlətlərin ali dənizçilik məktəbləri ilə sıx əməkdaşlıq edirik. Akademiya Sankt-Peterburq şəhərindəki A. Makarov adına Dənizçilik Akademiyası tərkibində fəaliyyət göstərən MDB ölkələrinin dənizçilik ali məktəblərinin tədris-metodiki şurasının üzvüdür.

**– Neçə istiqamət üzrə tədris həyata keçirilir?**

– Akademiyada dənizçilik ixtisasları üzrə təhsilin bütün pillələrində tədris aparılır. Öz profilinə görə regionda yeganə təhsil müəssisəsi olan ADDA-da ümumilikdə dörd – "Dəniz naviqasiyası" , "Dəniz mexanikası" , "Dəniz elektromexanikası" və "Gəmi tikintisi və təmiri" istiqamətləri üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla təhsil almaq mümkündür.

**– Ümumiyyətlə, Akademiyaya test üsulu ilə qəbul olunan gənclər savad baxımından sizi qane edirmi?**

– Bəli, son illər bu sahədə ürəkaçan bir tendensiya yaranıb. Düşünürəm, bu da söhbətimnizin əvvəlində dediyim kimi, aparılan təbliğat işlərinin nəticəsidir. Məsələn, əvvəllər daha az bal toplayanlar Akademiyaya daxil olurdusa, bu tədris ilində 10 nəfərdən çox tələbə 500-dən yuxarı balla Akademiyaya qəbul oldu. Onlardan da ikisi 600-dən yuxarı bal toplamışdı.

**– Tələbələrinizin xaricdə təhsil alması mümkündürmü?**

– Növbəti illərdə biz bunu planlaşdırırıq. Akademiyada təhsil alan tələbələrin digər ölkələrdəki universitetlərdə təhsil almalarının və tələbə mübadiləsinin təşkilini düşünürük. Hələlik bu olmasa da, xaricdən bizim Akademiyaya maraq az deyil. Təkcə Qazaxıstandan bizdə 15 gənc təhsil alır. Türkiyədən, Rusiyadan, Gürcüstandan da tələbələrimiz var.

**– Xarici tələbələr üçün xüsusi güzəştlər nəzərdə tutulubmu?**

– Xarici tələbələr ADDA-ya qəbul olmaq üçün imtahan vermirlər və öz istəklərinə uyğun rus və Azərbaycan dillərində təhsil almaq imkanlarına malikdirlər. Bundan başqa, yerli tələbələrə nə şərait və inkanlar yaradılıbsa, xaricilər də o imtiyazlardan istifadə edə bilirlər. Yəni, biz onları pulsuz yataqxana və yeməklə təmin edirik.

**– Gələcəyin dənizçisindən nə tələb olunur?**

– Birinci növbədə ciddi intizam. Sıra düzülüşü, səliqəli saç düzümü, üzün təmiz saxlanılması və s. ilk baxışdan adi görünə bilər. Amma belə ciddi nizam-intizam gələcəkdə də faydasını verir. Hər adam dənizçi ola bilməz. Dənizçiliyin öz spesifik xüsusiyyətləri var. Gələcəkdə istəyirik ki, qəbul zamanı qabiliyyət imtahanı keçirilsin. Yəni, kimin marağı və həvəsi varsa və səhhəti imkan verirsə, o dənizçi peşəsinə yiyələnsin. İndi bizim əvvəlcədən tələbənin səhhətini yoxlamaq imkanımız yoxdur. Halbuki, dənizçinin sağlamlığı çox vacibdir. Düşünürəm, qabiliyyət imtahanı olsa, bir çox problemlər aradan qalxar. Bu barədə Gəmiçiliyin rəhbərliyinə də məlumat vermişik və təkliflərimizi göndərmişik.

**– Məzunların işlə təmin olunmasına Akademiya hansısa köməklik edirmi?**

– Əlaçıları və yaxşı oxuyanları demək olar ki, işlə təmin edirik. 2016-cı ildə 30 tələbə hərbi xidməti başa vurduqdan sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də işə başlayıb. Bakı Gəmiqayırma Zavodunda da məzunlarımız çalışırlar. Diplom müdafiəsinə yaxın onların nümayəndələri Akademiyada seçim edirlər. Öz təcrübələrinə qəbul etdikləri tələbələri gələcəkdə işə götürürlər. Onu da deyim ki, tələbələrimiz arasında öz ixtisasları üzrə xarici ölkələrdə işləyənlər də var.

**– Gələcək planlarınız haqqında nə deyə bilərsiniz?**

- Əsas məqsədimiz yüksəkixtisaslı kadrlar hazırlamaqdır. Elə kadrlar ki, dalğalar qoynunda və ya sahil müəssisələrində çalışmalarından asılı olmayaraq, həmişə məzunlarımızın xoş sorağını eşidək.

*Rövşən Abdurəhmanov*

## TƏLƏBƏ QƏBULU İLƏ BAĞLI ÖDƏNİŞLİ XİDMƏTLƏRİN TARİFLƏRİ MÜƏYYƏNLƏŞDİRİLİB

*Martın 6-da Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib.*

Tarif Şurasından bildirilib ki, iclasda Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən ödənişli xidmətlərin tariflərinin tənzimlənməsi məsələsinə baxılıb və müvafiq qərar qəbul edilib. Belə ki, Dövlət İmtahan Mərkəzinin müraciəti və təklifləri nəzərə alınmaqla, tələbə qəbulu ilə bağlı ödənişli xidmətlərin tarifləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli müvafiq qərarları ilə təsdiq edilən qaydalara uyğun 9 qrup üzrə təsnifatlaşdırılıb və imtahanın növündən asılı olaraq 10-100 manat arasında müəyyənləşdirilib.

Tarif (qiymət) Şurasının iclasında ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətə uyğun olaraq, əhalinin sosial müdafiəsini daha da gücləndirmək, maddi vəziyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının təhsilini davam etdirməsini və insan kapitalının inkişafını təmin etmək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunu stimullaşdırmaq məqsədi ilə dövlətimizin başçısının 2017-ci il 24 fevral tarixli Sərəncamına əsasən, orta ixtisas təhsili müəssisələrinə və ali təhsilin bakalavriat (tibb təhsili üzrə əsas təhsil) səviyyəsinə tələbə qəbulu ilə bağlı imtahanlarda ilk dəfə iştirak üçün müraciət etmiş ümumi təhsil müəssisələrini bitirən Azərbaycan vətəndaşlarının imtahanlarda iştirakı üçün tələb edilən məbləğin dövlət büdcəsi hesabına ödəniləcəyi qeyd edilərək, Prezidentin bu tapşırığının əhəmiyyəti xüsusi vurğulanıb.

İclasda, həmçinin Səhiyyə Nazirliyinin müraciəti nəzərə alınaraq, "Dərman vasitələrinin və dərman maddələrinin ekspertizası xidmətlərinin tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 13 may tarixli Qərarında dəyişikliklər edilib. Dərman vasitələrinin ekspertizası xidmətləri üzrə təsnifatlaşdırmanın təkmilləşdirilməsi, qeydiyyat prosesində doza və qablaşdırma üzrə çeşid sayının optimallaşdırılması, konkretləşdirmə və praktikada anlaşılmazlıqların aradan qaldırılması məqsədilə yenidən dövlət qeydiyyatına alınmaq üçün ixtisaslaşdırılmış ekspertiza və qeydiyyat sənədlərində edilmiş dəyişikliklərin qeydiyyata alınması üçün ekspertizaya görə hər əlavə doza və qablaşdırma üçün tariflər təsdiq edilib.

Eyni zamanda, iclasda qanunvericiliyin təkmilləşdirilməsi, habelə yeni məzənnə rejimi şəraitində dərman vasitələrinin etibarlı təchizatının təmin edilməsi baxımından daha çevik qiymət tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 20 dekabr tarixli Qərarı ilə "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"nda edilmiş dəyişikliklərə uyğun olaraq, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat"a da dəyişikliklər edilib.

Qərarların tam mətni Tarif (qiymət) Şurasının rəsmi internet səhifəsində (www.tariff.gov.az) yerləşdirilib.

## TAP LAYİHƏSİNƏ 270 MİLYON AVRO SƏRMAYƏ YATIRACAQ

*İtaliyanın "Snam S.p.A." təbii qaz infrastruktur şirkəti səhmdarı olduğu və Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsinə 270 milyon avro sərmayə yatıracaq.*




Trans Adriatic Pipeline

Bu barədə "Snam"ın 2017-2021-ci illəri əhatə edən sərmayə planında deyilir.

Bildirilir ki, 2017-2021-ci illəri əhatə edən dövr ərzində "Snam" İtaliyanın qaz şəbəkəsini və Avropa infrastruktur sistemini daha da inkişaf etdirmək məqsədilə 4,7 milyard avro, TAP layihəsinə isə 270 milyon avro sərmayə yatıracaq.

Xatırladaq ki, TAP-ın təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. "Trans-Adriatik" qaz boru kəmərinin tikintisi üzrə işlərin təxminən 35 faizdən çoxu icra olunub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək.

Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın inşasında ümumilikdə 53 mindən çox borudan istifadə olunacaq. Boru kəmərinin Yunanıstan hissəsində 32 min, Albaniya hissəsində 12 min, Adriatik dənizi hissəsində 8 min 750, İtaliya hissəsində isə 660 borudan istifadə ediləcək. Boruların ümumi çəkisi 526 min tondur. Bunun da Albaniya hissəsində 126 min tonu, Yunanıstanda 323 min tonu, dəniz hissəsində 72 min tonu, İtaliyada isə 5 min tonu istifadə olunacaq.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## YAXIN VAXTLARDA "TÜRK AXINI"NIN DƏNİZ HİSSƏSİNİN İNŞASINA BAŞLANILACAQ

*Rusiya təbii qazının Türkiyə və Avropaya nəqlini nəzərdə tutan "Türk axını" qaz boru kəmərinin (Turkish Stream) dəniz hissəsinin tikintisinə yaxın aylarda başlanılacaq.*




Bunu Rusiyanın enerji nəhəngi "Gazprom" şirkətinin idarə heyətinin üzvü Oleq Aksyutin deyib. O bildirib ki, tikinti prosesi 2017-ci ilin ikinci yarısında başlayacaq.

Xatırladaq ki, "Gazprom" "Türk axını"nın dəniz hissəsində inşa ediləcək iki boru kəmərinin tikintisi üzrə müqavilələri İsveçrənin "Allseas" şirkəti ilə imzalayıb.

Qeyd edək ki, "Türk axını" ilə Rusiya təbii qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Kəmərlə ümumilikdə 31,5 milyard kubmetr qazın Avropanın, qalan hissəsinin isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə edilməsi planlaşdırılır. Layihə üzrə hər biri 15,75 milyard kubmetr tutuma malik iki boru kəmərinin inşa edilməsi nəzərdə tutulur. İlk boru kəmərinin Türkiyəyə, ikinci kəmərin isə zəruri zəmanət təmin olunacağı təqdirdə Avropaya çatdırılması planlaşdırılır.

"Gazprom" "Türk axını" layihəsinə bu il ərzində 42 milyard rubl (təxminən 704 milyon dollar) sərf etməyi nəzərdə tutur. Şirkət layihə üzrə keçən il 23,5 milyard rubl sərmayə qoyuluşu həyata keçirib.

DƏNİZ
10 mart 2017-ci il № 17-20 (9111)



## 2 MİNDƏN ÇOX GƏMİ QƏBUL EDİB

***SOCAR-ın Gürcüstandakı aktivi olan Kulevi neft terminalının limanı indiyədək 2 mindən çox gəmi qəbul edib və yola salıb.***

AZƏRTAC terminalın saytına istinadla xəbər verir ki, Kulevi limanı 2008-ci ilin mayında fəaliyyətə başlayıb. O vaxtdan indiyədək liman 2 mindən çox gəmini qəbul edib və yola salıb. Liman ilboyu fasiləsiz fəaliyyət göstərir.

Kulevi limanının uğurlu fəaliyyət göstərməsində ən mühüm amillərdən qəbuledici kanalı və onun daxilində dərinliyin saxlanmasıdır. Limanın dibdərinləşdirmə işləri "Marian B" torpaqqazanı ilə həyata keçirilir.

Qara Dəniz Terminalındakı idarəetmə mərkəzi tərəfindən bu qurğunun texniki vəziyyəti daim izlənir. Qurğu müasir naviqasiya avadanlığı ilə təchiz edilib. Onun təmir-bərpa işləri vaxtında aparılır.

## DƏNİZLƏRİN ÇİRKLƏNMƏSİNƏ QARŞI MÜBARİZƏ KAMPANİYASI ELAN EDİLİB

***Əgər bəşəriyyət birdəfəlik butulkalardan, paketlərdən və stəkanlardan, habelə tərkibində plastik mikrohissəciklər olan kosmetikadan imtina etməsə, 2050-ci il üçün dünya okeanında balıqdan çox plastik kütlə olacaq.***

BMT Xəbərlər Mərkəzi bildirir ki, bu barədə BMT-nin Ətraf Mühit Proqramının (UNEP) ekspertləri xəbərdarlıq edirlər. Dənizin çirklənməsinə qarşı UNEP-in himayəsi ilə Ümumdünya mübarizə kampaniyasına start verilib. Bir çox məşhurlar və dünya şöhrətli brend istehsalçıları, o cümlədən müğənni Cek Conson və supermodel Nadya Hutagalung artıq bu kampaniyaya qoşulublar. Onlar beynəlxalq birliyi plastik kütləyə müharibə elan etməyə çağırıblar.

Ekspertlər hesab edirlər ki, tullantıların və zibilin dənizə atılması nəticəsində onun çirklənməsi dünyanın bütün regionlarında istər sahil, istərsə də sahilyanı zolağın pis vəziyyətə düşməsinin əsas səbəbidir. Özü də dünya okeanında bütün zibilin 80 faizə qədəri davamlı zəhərli maddələrin toplanması mənbəyidir.



UNEP-in məlumatına görə, hər il dünya okeanına 8 milyon tondan çox plastik tullantı atılır.

Təmiz dəniz uğrunda Ümumdünya kampaniyası dünya okeanı məsələlərinə dair Ümumdünya sammitində start götürüb. Bu kampaniya hökumətlərin plastik kütlədən və qablaşdırmadan istifadənin azaldılması siyasəti yürütmələrinə, sənaye məhsuluna tələbləri dəyişdirmələrinə yönəlib. Təkliflərdən biri sellofan paketlərdən istifadəni qadağan etməyi və plastik qablaşdırmada olan mallara yüksək vergilərin tətbiq olunmasını nəzərdə tutur. Ekspertlər xəbərdarlıq edirlər ki, belə tədbirlər görülmədən dənizlərin çirklənməsinin qarşısını almaq mümkün olmayacaq.

Dünya şöhrətli brendlər, o cümlədən "Dell" kompüterlərini istehsal edən şirkət dənizin çirklənməsinə qarşı mübarizəyə qoşulublar. Kompüter nəhəngi okeanlardan toplanmış zibili emal etməyi və ondan öz məhsulunu qablaşdırmaq üçün istifadə etməyi planlaşdırır.

UNEP-dən bildiriblər ki, ötən əsrin 60-cı illəri ilə müqayisədə hazırda 20 dəfə çox plastik kütlə istehsal edilir. Bu plastik kütlənin təqribən üçdəbir hissəsindən qablaşdırma materialı kimi istifadə olunur. 2050-ci il üçün plastik kütlə istehsalı 3-4 dəfə arta bilər.

Kampaniyanın başlıca tədbirləri iyunun 5-9-da Nyu-Yorkda, BMT iqamətgahında okeanların məsələlərinə həsr olunmuş konfransda, habelə dekabr ayında Keniyanın paytaxtı Nayrobidə ətraf mühit məsələlərinə dair BMT Assambleyasında elan ediləcək.

## XƏZƏR DƏNİZİNDƏ SƏYAHƏT ÜÇÜN DOQQUZ MARŞRUT TƏKLİF EDİR

***Dağıstan Xəzər dənizi ölkələri boyunca səyahət marşrutlarının açılmasına dair beynəlxalq layihəni Soçidə keçirilən Rusiya İnvestisiya Forumunda təqdim edəcək. Bu barədə Dağıstan Sahibkarlıq və İnvestisiya Agentliyinin rəhbəri Başir Maqomedov məlumat verib. Onun fikrincə, kruiz gəmiləri ilə Xəzəryanı ölkələrə səyahət həm bu ölkələrin əhalisi, həm də əcnəbi turistlər üçün maraqlı olar.***

Dağıstan bu layihə çərçivəsində doqquz marşrut təklif edir. B.Maqomedov bildirib ki, bu marşrutlardan ən maraqlısı Mahaçqala-Dərbənd-Bakı-Ənzəli-Türkmənbaşı-Aktau-Həştərxan-Mahaçqala marşrutu ilə səyahəti nəzərdə tutan "Xəzər dostluq dənizidir" layihəsidir.

Yeni layihə çərçivəsində Mahaçqala Dəniz Ticarət Limanında kruiz gəmiləri, yaxtalar və katerlərin yan alması üçün sərnişin və bərə körpülərinin inşası planlaşdırılır. Burada, həmçinin illik sərnişin dövriyyəsi 30 min nəfər təşkil edəcək dəniz vağzalı və otel tikiləcək.

***Fəridə Abdullayeva***



# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## "Unutsaq, unudularıq"

### "ONUN HAQQINDA HƏLƏ ÇOX EŞİDƏCƏKSİNİZ"

İsmayılov Məhərrəm Süleyman oğlu 1878-ci ildə Bakıda - İçərişəhərdə anadan olub. Bakı dənizçilik siniflərinin ilk azərbaycanlı məzunu - dənizçilər sülaləsindən olan Süleyman İsmayıl oğlunun ikinci oğul övladıdır.

Dənizçilər nəslinin yetirməsi olan bütün oğullar kimi, o da erkən yaşlarından atası ilə birlikdə yelkənli gəmilərdə dəniz səfərlərinə çıxıb, peşənin incəliklərinə mükəmməl yiyələnib.



Atası oğlunun qabiliyyətini və sənətə həvəsini görüb, onu təhsil almaq üçün Peterburqa göndərir. İmperator Birinci Aleksandrın adını daşıyan, quru və dəniz yolları üçün mühəndislər hazırlayan institutun kiçik kurslarında 5 il təhsil alan Məhərrəm sözügedən təhsil ocağını əla qiymətlərlə başa vuraraq, "gəmi sürücüsü" ixtisası üzrə diplom alır.

Bakıya qayıdan gənc Məhərrəm milyonçu Yusif Dadaşova məxsus yelkənli gəmilərin birində kapitan köməkçisi işləyir. Biliyi, bacarığı və çalışqanlığı ilə seçilən kapitan köməkçisi yenidən oxumaq üçün Peterburqa getmək istədikdə, onun arzusu nəzərə alınır. Bu dəfə Məhərrəm İsmayılov imperiyanın paytaxtına uzaq səfərlər kapitanı olmaq məqsədi ilə yola düşür. Və…

Dövlət imtahanlarından əvvəl müdavimlərdən ibarət heyətlə yelkənli gəmi Peterburqdan Avstraliyaya səfərə çıxır. Gəmi yolda – 10-cu paraleldə güclü tufana düşür. Gəminin kapitanı Paxolonq 18 müdavimə yelkənlərdən 10-15-ni yığmağı əmr edir. Müdavimlər bosmanın göstərdiyi dor ağaclarına çıxıb, yelkənləri yığırlar. Məhərrəm Süleyman oğlu da onların arasında olur. Öz yelkənlərini təzə yığıb qurtarır ki, birdən qışqırıq eşidilir: "Suya düşən var!". Bu hadisə okeanda dan yeri təzəcə sökülən zaman baş verir. Gənc Məhərrəm dərhal göyərtəyə düşür. Vaxt itirmədən belinə kəndir bağlayır və bir ucunu da borta bənd edib suya tullanır ...

Üç aydan sonra gəmi Peterburq limanında dayanır. 2 gün əvvəl müdavimlərin dövlət imtahanlarından azad olması barədə əmr gəlsə də, heyəti sahilə buraxmırlar.

Günortadan sonra gəminin salonunda kapitan səfərin uğurlu alınması və vaxtından 10 gün tez bitməsi ilə müdavimləri təbrik edir. Daha sonra müdavim yoldaşını dalğaların cəngindən alan Məhərrəm Süleyman oğlunu qəhrəman adlandırır və dərslərindən də həmişə yüksək qiymətlər aldığını bildirir. Şücaətinə görə ona mükafat olaraq Peterburq qusar zabitlərinə forma tikən dərzi sexində pulsuz kapitan libası tikdirmək üçün qəbz və göy rəngli atlas vərəqdə adına yazılmış tərifnamə təqdim edir.

Bakıya qayıdan Məhərrəmi bir ay sonra Yusif ağa Dadaşov məşhur milyonçu Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə onun malikanəsinə aparır.

Həmin gecə Hacı xarici ölkələrdə və Rusiyada təhsilini başa vuran gənclər üçün ziyafət təşkil edir. Məhərrəmi isə ziyafətin təyin olunduğu vaxtdan yarım saat tez çağırır, onunla söhbətləşir. Ziyafət zamanı gənclərə Məhərrəmi göstərib deyir: "Xahiş edirəm onu yadınızda saxlayın, siz onun haqqında hələ cox eşidəcəksiniz". Hacı Zeynalabdin bu yüksək mənəviyyatlı gənc kapitanın onu Peterburqda saxlamaq istəsələr belə, Vətənə qayıdıb öz millətinə xidmət etmək, milli kadrlar hazırlamaq əzmini yüksək dəyərləndirir.

1918-1920-ci illərdə müstəqil Azərbaycanın üçrəngli bayrağı altında üzmək Məhərrəm Süleyman oğlunun nəsibinə yazılır. Kapitan cani-dildən ölkəsinin tərəqqisi üçün çalışır, gənc kadrları hazırlayaraq onların kapitan kimi fəaliyyət göstərmələrinə nail olur...

Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdə Məhərrəmə qarşı haqsızlıqlar olsa da, təcrübəli kadrların çatışmazlığı onu işdən uzaqlaşdırmağa imkan vermir. Məhərrəm Süleyman oğlunun gəmisi, hətta dənizin təlatümlü vaxtlarında səfərə çıxır. Böyük nüfuz sahibi olan kapitan bacarıqla heyəti tapşırıqların yerinə yetirilməsinə səfərbər edir, yeni-yeni rekordlara imza atır. Odur ki, dənizçilər nəslinin görkəmli nümayəndəsi haqlı olaraq işi, insani keyfiyyətləri və əməlləri ilə sayılıb-seçilir və nəinki Xəzərdə, bütün keçmiş Sovet İttifaqı məkanında tanınır.

Böyük Vətən müharibəsi illərində Xəzər dənizçilərinin fədakar əməyi yüksək dəyərləndirilir. Təkcə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 4 iyun tarixli əmri ilə 498 nəfər müxtəlif orden və medallarla təltif edilir ki, onların sırasında Məhərrəm Süleyman oğlu da olur.

Dinc quruculuq illərində kapitan M. İsmayılov eyni əzm və səylə çalışır və ən başlıcası öz məramına çatır – onlarca milli kadr hazırlayır.

Adlı-sanlı kapitan Məhərrəm Süleyman oğlunun fəaliyyəti yüksək dəyərləndirilib – iki dəfə Lenin ordeninə, "Qırmızı Əmək Bayrağı" ordeninə, iki medala layiq görülüb və "Dəniz donanmasının fəxri işçisi" olub.

Məhərrəm Süleyman oğlu İsmayılov 1952-ci il mayın 20-də 74 yaşında dünyasını dəyişib.

Böyük hörmət sahibi olan Məhərrəm Süleyman oğlunun adı ölümündən sonra əbədiləşdirilib - Finlandiyada istehsal edilmiş buzqıran yedək gəmisinə onun adı verilib.

Qocaman kapitan Məhərrəm Süleyman oğlunun əziz xatirəsi bu gün də yaşayır. Yetirmələri olan kapitanlar dünyalarını dəyişsələr də, artıq onların öz yetirmələri və övladları bu nurlu şəxsi hörmətlə yad edir, gənclərə örnək göstərirlər.

## ƏFSANƏVİ ŞƏXSİYYƏT

Rəhimov Mahmud Cəfərqulu oğlu 1905-ci ildə Bakı şəhərində anadan olub. Əmək fəaliyyətinə 1920-ci ildə Bakı şəhərində Su nəqliyyatının ərzaq şöbəsində agent işləməklə başlayaraq Gəmiçiliyin rəisi vəzifəsinə kimi yüksəlib.

1931-ci ildə əməkdə fərqlənmiş işçilər sırasında Leninqrad (Sankt-Petrburq) şəhərindəki Su Nəqliyyatı Mühəndisləri İnstitutuna orta komandir heyəti kurslarına göndərilib.

Bakıya, Xəzər Dəniz Gəmiçiliyinə qayıtdıqdan sonra dispetçer, baş dispetçer, istismar şöbəsinin rəis müavini, "Xəzərtanker" Gəmiçiliyinin rəis müavini vəzifələrində çalışıb.

M.Rəhimovun parlaq təşkilatçılıq qabiliyyəti 1942-1952-ci illərdə "Xəzərtanker" Gəmiçiliyinin rəisi vəzifəsində çalışarkən özünü xüsusilə biruzə verdi. Onun bilavasitə rəhbərliyi ilə Böyük Vətən müharibəsi illərində cəbhəni fasiləsiz neft məhsulları ilə təmin etmək kimi ağır və məsuliyyətli iş uğurla görülüb. Müharibə illərindəki fədakar əməyinə və böyük uğurlarına görə M.Rəhimovun rəhbərliyi ilə "Xəzərtanker"in kollektivi SSRİ Müdafiə Komitəsinin Qırmızı Bayrağı ilə (əbədi saxlanılmaqla) təltif edilir.

1952-1956-cı illərdə Mahmud Rəhimov Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini işləyir. 1956-cı ildə Xəzər Dəniz Gəmiçiliyinin rəisi təyin olunur.

Gəmiçiliyin rəisi kimi M.Rəhimov donanmanın, xüsusilə onun özəyini təşkil edən tanker donanmasının bərpasına, yeniləşdirilməsinə və inkişafına ciddi fikir verirdi. Xəzərdə Bakı ilə Krasnovodsk (Türkmənbaşı) limanları arasında gəmi-bərə keçidinin inşasının təşəbbüskarlardan və reallaşdıranlardan biri idi. Mükəmməl nəqliyyat – dəmir yolu – bərə sisteminin yaradılmasında misilsiz xidmətləri olmuşdur. Keçən əsrin 60-cı illərində M.Rəhimovun sayəsində donanmanın suya az oturan "Mühəndis Pustoşkin" tipli tanker və "Mühəndis Belov" tipli quru yük daşıyan gəmilərin Qara və Aralıq dənizlərində istismarına icazə verildi. Bu, Xəzər Gəmiçiliyinin dənizçilərinə beynəlxalq sulara çıxaraq təcrübələrini dünya standartlarına uyğun zənginləşdirməyə imkan verdi. Bakı limanında qeydiyyata alınmış gəmilər dünyanın 100-dən artıq limanına daxil oldu.



M.Rəhimov donanmanın və Gəmiçiliyin sahil strukturlarının inkişafı ilə bağlı məsələlərdən başqa, habelə donanmanın idarə edilməsi metod və üsullarının təkmilləşdirilməsi, dənizçilərin sosial problemlərinin həlli, xüsusilə də yaşayış binalarının tikintisi ilə gündəlik məşğul olurdu. Məhz onun dövründə dənizçilər, liman işçiləri, gəmi təmirçiləri, bir sözlə Gəmiçiliyin bütün struktur bölmələrində çalışanlar üçün mənzil tikintisinə başlandı. 553-cü, 555-ci, 557-ci və sairə yaşayış məhəllələri istismara verildi. 600 min kv.metrdən artıq yaşayış sahəsi, uşaq bağçaları, mədəni-məişət obyektləri və pansionatlar təhvil verildi.

M.Rəhimov 1965-ci ildə dəniz nəqliyyatının inkişaf etdirilməsinə kömək məqsədi ilə Birləşmiş Ərəb Əmirliklərinə göndərilir, burada SSRİ Dəniz Donanması Nazirliyinin səlahiyyətli nümayəndəsi kimi çalışır. 1966-cı ildə Xəzər Dəniz Gəmiçiliyinin İrandakı Baş dəniz agentliyinə rəis təyin edilir.

Mahmud Rəhimov çalışdığı bütün sahələrdə işə vicdanlı münasibəti ilə seçilirdi. Onun təvazökarlığı, qəlb açıqlığı, yaranan problemlərin həllində israrlı olması, kadrlara tələbkarlığı ilə bərabər, onlara qayğı ilə yanaşması – Vətən qarşısında borcu yerinə yetirməyin ən parlaq nümunəsi idi.

Mahmud Rəhimovun əmək fəaliyyəti çox yüksək – dörd dəfə Lenin ordeni (keçmiş SSRİ dövründə bu, çox nadir hadisə idi), "Qırmızı Əmək Bayrağı" ordeni və bir çox medallarla qiymətləndirilmişdir.

1989-cu ildə dünyasını dəyişsə də nurlu şəxsiyyət Mahmud Cəfərqulu oğlu Rəhimovun xatirəsi Xəzər dənizçilərinin qəlbində yaşayır və həmişə də yaşayacaqdır.

***Sevda Abdullayeva,***
***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ ƏMƏKDAŞLARI "BUREAU VERİTAS" TƏSNİFAT CƏMİYYƏTİNİN MƏNZİL-QƏRARGAHINDA YOXLAMA APARIBLAR

***"Bureau Veritas" təsnifat cəmiyyətinin Fransanın paytaxtı Paris şəhərində yerləşən mənzil-qərargahında Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının əməkdaşları tərəfindən yoxlama keçirilib.***



Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, "Tanınmış Təşkilatlar haqqında" Məcəllənin (RO Code) 3-cü Hissəsinin tələblərinə əsasən Tanınmış Təşkilat və ya Təsnifat Cəmiyyətinin fəaliyyətinin qiymətləndirilməsi, onun beynəlxalq konvensiyaların və yerli qanunvericiliyin tələblərinə uyğunluğunu müəyyənləşdirməsi, həmçinin "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərə texniki nəzarətin həyata keçirilməsi üçün Dövlət Dəniz Administrasiyası tərəfindən razılıq verilmiş təsnifat cəmiyyətlərinin yoxlanılması ilə əlaqədar tədbirlər haqqında" Dövlət Dəniz Administrasiyasının müvafiq əmrinin icrasını təmin etmək məqsədilə "Bureau Veritas" təsnifat cəmiyyətinin Fransanın paytaxtı Paris şəhərində yerləşən mənzil–qərargahında Dövlət Dəniz Administrasiyasının Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərhad Məmmədov və Gəmi qeydiyyatı və standartlarına nəzarət şöbəsinin müdiri Seymur Mirzəyev tərəfindən yoxlama həyata keçirilib.

Dövlət Dəniz Administrasiyası tərəfindən səlahiyyət verilən "Bureau Veritas" təsnifat cəmiyyəti ilə qarşılıqlı əməkdaşlığın səviyyəsi və həmin təsnifat cəmiyyətinin dəniz nəqliyyatı sahəsində fəaliyyətinin Beynəlxalq Konvensiyaların tələblərinə uyğunluğu, eyni zamanda "Tanınmış Təşkilatlar haqqında" Məcəllənin (RO Code) 3-cü Hissəsinin tələblərinə əsasən təsnifat cəmiyyətinin keyfiyyətli idarəetmə sisteminə dair sənədləşmələri, daxili təlimat və sirkulyarlardan istifadə etmək imkanları, Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsinə aid sənədlərdən istifadə etmək imkanları, eləcə də Azərbaycan Respublikasının təftiş və auditlərində əməkdaşlığın, məlumat və statistikanın ötürülməsinin səviyyəsinə nəzər yetirilib.

Həmçinin, "Bureau Veritas" təsnifat cəmiyyəti tərəfindən sertifikatlar verilmiş gəmilərin milli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğunluğu, adıçəkilən təsnifat cəmiyyətinin texniki heyətinin daxili qayda və qanunlar barədə kifayət qədər biliyə malik olması və texniki heyətin öz vəzifələrini yerinə yetirərkən müstəqil qərar qəbul etməsinə təsir edə biləcək hər hansı təzyiq və qərəzli münasibətin olub-olmaması yoxlanılıb.

Eyni zamanda "Bureau Veritas" təsnifat cəmiyyətinin təsnifatında olan gəmilərin və bu təsnifat cəmiyyəti tərəfindən gəmiçilik şirkətlərində aparılan yoxlamaların Beynəlxalq Konvensiyaların və yerli qanunvericiliyin tələblərinə uyğunluğunun müəyyən edilməsi, eləcə də qeyd olunan tərəflər arasındakı məlumat mübadiləsinin səviyyəsi yoxlanılıb.

Yoxlama nəticəsində Azərbaycan Respublikasının milli qanunvericiliyinin və "Tanınmış Təşkilatlar haqqında" Məcəllənin tələblərinə uyğun olaraq, "Bureau Veritas" təsnifat cəmiyyətinin fəaliyyətinin ümumilikdə qənaətbəxş olduğu müəyyən edilib. Həmçinin, adıçəkilən təsnifat cəmiyyətinin fəaliyyətində bəzi sahələrin daha da yaxşılaşdırılması yönündə tövsiyələr verilib.



## ONLARLA GƏMİNİN HƏRƏKƏTİ İFLİC OLUB

***Havanın qismən yaxşılaşmasına baxmayaraq iki həftədir ki, buzlaşmış Dunay çayı üzərində Bolqarıstanın Popina və Silistra rayonları yaxınlığında 20 gəminin hərəkəti iflic olub.***

Gəmiçiliyin bərpası proqnozu çay üzərində üzən böyük buz kütlələrinin çoxluğu səbəbindən verilmir. Gəmilər ərzaqla təmin olunub və buzun açılmasını gözləyirlər.

## HEYƏT ÜZVLƏRİ AZADLIĞA BURAXILIB

***Fevralın 5-də Nigeriyanın ərazi sularında dəniz quldurlarının Almaniyanın "Briese Schiffahrts" şirkətinə məxsus "BBC Caribbean" yük gəmisinə hücum edərək girov götürdükləri heyət üzvləri azadlığa buraxılıb.***

TASS agentliyinin xəbərinə görə, bu haqda Sevastopolun İnsan hüquqları üzrə müvəkkili Pavel Butsay məlumat verib.

Dənizçilərin yeddisi Rusiya, biri Ukrayna vətəndaşı olub. "Briese Schiffahrts" şirkəti və Rusiyanın Nigeriyadakı səfirliyi heyət üzvlərinin azadlığa buraxılması üçün gərgin danışıqlar aparıblar. Danışıqlar zamanı gəmi heyətinin azadlığa buraxılması üçün veriləcək pulun miqdarı barədə razılıq əldə olunub. Dəniz quldurlarına verilən pulun miqdarı isə açıqlanmayıb.

## YARIZARAFAT, YARIGERÇƏK

**Qadınlar çox danışırlar? Bəlkə biz kişilər çox gec – bir kitablıq sözdən sonra anlayırıq?**

**Ən yaxşı kişi, adı çəkiləndə belə həyat yoldaşının üzü gülən kişidir.**

**Dost kimi görünən görünməyən düşmənlərdən daha qorxuludur.**

**İndiki düşmənlərimizin əksəriyyəti keçmiş dostlarımızdır.**

**Adəm bir almaya görə Cənnətdən qovulubsa, bu o demək deyil ki, Cənnətin bütün qapıları alma yeməyənlərin üzünə açıqdır.**

**Vəzifədə məndən böyük tanışlarımın əksəriyyəti həmişə özlərini ən azı, çox ağıllı sayıblar və dediklərimi də qulaqardına vurmağı xoşlayıblar. Beləcə, bir müddət saydıqlarını sayıblar. Sonra isə fələk tamam başqa şey sayıb...**

**Arxamızda qurulan bütün oyunlar qanundankənar oyunlardır.**

**Allahım, Həsən ağanın nə qədər qohumu varmış...**

**Azadlığın sərhədləri nə qədər geniş olsa, məsuliyyət hissi də o qədər böyük olmalıdır.**

**Hətta paxıllıq kimi yozsalar da, pis heç nəyi alqışlamayın.**

**Xoşbəxt olmaq üçün həyatı həyatdan öyrənmək lazımdır. Kitablardan öyrənməklə uzağı alim olmaq olar.**

**Hardasınız, ay köhnə kişilər?**

**Yalan təkcə həqiqətin qorxusundan yaranmır. Yalanı həm də həqiqəti qorxutmaq üçün deyirlər.**

**O tayında nə edəcəyini bilmirsənsə, çayı keçməyə dəyməz.**

**Qəhrəmanlığı kişilərdən gözləyirik. Qadınlarımız onsuz da qəhrəmandırlar.**

**Adamlığı olmayanların başqa nəyi varsa, artıq mənim üçün maraqlı deyil.**

**İki uzunqulağın arpasını bölə bilməyənlərə bölməyə nəyi verəsən?**

**Bəziləri danışmamaqla, ətrafdakılara böyük hörmət etmiş olurlar. Onsuz da boş-boş şeylər eşitməkdən çoxu bezib.**

**Pis işçiyə yaxşı işçidən daha çox əmək haqqı vermək yaxşı işçinin boğazından o qədər kəsmək kimi bir şeydir.**

**Başı daşa dəyən adam daşa niyə dəydiyini düşünmək əvəzinə, başqa şeylər haqında baş sındırsa, onda baş qalmaz.**

**İnsanları sevməyi qadağan etmək lazımdır. Adamlar adətən qadağaları pozmağı xoşlayırlar.**

**Bir də görürsən ki, 200 nəfərlik kollektivin 20 nəfəri işləyir, qalanları isə sadəcə çalışırlar. Çalışırlar ki, özlərini yaxşı işçi kimi qələmə versinlər.**

**Məni hamı başa düşür. Amma deyəsən hər kəs başa düşdüyü kimi.**

**Çox davam edərsə, bəzi şeyləri heç olmasa yuxuda görmək də pis deyil.**

**Sizə kəllə atanları qınamayın. Yəqin atmağa ən yüngül şeyləri kəllələridir.**

**Tərbiyə uşağın da, yüz yaşlı adamın da bəzəyidir.**

**Ən gözəl itki sevgidən başını itirməkdir.**

**Qadınları aldatmaq mümkün deyil. Qadınları aldada bildiklərini düşünən kişilərin ağlına belə gəlmir ki, özlərini aldadırlar.**

**Bütün canlılar arasında yalnız insan danışa bilir, yalnız insan yalanın nə olduğunu dərk edir və çox təəssüf ki, pis olduğunu bilə-bilə yalan da danışır.**

**Mənim bədbəxtliyim və bəlkə xoşbəxtliyim də məni tanımayanları da yaxşı tanımağımdadır.**

**Həyat imtahan olduğu üçün savadsızlar ancaq və ancaq dayı axtarırlar?**

**Yaxşı ki, Cənnət anaların ayaqları altındadır. Kişilərin ayaqları altında olsaydı, çoxdan cəhənnəmə döndərmişdilər.**

**Adam olmaq kiminsə adamı olmaqdan qat-qat yaxşıdır.**

**Yaxşı ki, hər şeyi bilmirəm. Bildiyim o qədər şeylər var ki, məni yalnız narahat edir.**

**Pulum o qədər olsun ki, məni saxlasın. Çox olsa, onu hansı valyutada saxlamaq da bir problemdir.**

**Sadəcə maraqlıdır, ağzıyırtıqlar bir sözü ağızlarında uzağı nə qədər saxlaya bilirlər?**

**Bataqlığın yarısı olmaqdansa, dənizin bir damlası olmaq yaxşıdır.**

**Dəniz dənizdən, Xəzər bütün dənizlərdən gözəldir.**

**Yeyənlərim də var, deyənlərim də. Yaşamaq üçün insana daha nə lazımdır ki?**

**Heç olmasa ildə bir dəfə "Həqiqət günü" keçirmək olmaz?**

**Biri var, neçə yerə işləyir. Görəsən neçəyə işləyir?**

**İnsanın düşüncəsini "Mənə nə!"dən təmizləyə bilsək, hər işimiz yaxşı gedər.**

**Qorxaqlığın ən pisi həqiqətdən qorxmaqdır.**

**Allah çox bilənləri çox bildiklərini düşünənlərdən qorusun.**

**Deyəsən hərifə çox oxşayıram axı. Yoxsa hərif axtaranlar məni görəndə niyə belə sevinsinlər?**

**Adam tanıyan deyiləm. Amma, uzun illər 8-ci KM bazarının bir addımlığında yaşadığım üçün bazar adamlarını yaxşı tanıyıram.**

**Bəzən təxminlərimin düz çıxmamasını elə arzulayıram ki... Məsələn, kiminsə adam olmadığını görəndə, yanılmağımı istəyirəm.**

**Ədalət olmayan yerdə ətalət daha güclü olur.**

**Mükafatı "dayı"ya görə verirlərsə, Allah maaşımı bərəkətli etsin.**

***Rasif TAHİROV***



## DAĞ HAVASI SATIR

***Böyük Britanıya vətəndaşı "hər şeyə malik insanlara" butulkası 247 dollardan İsveçrənin dağ havasını satır.***

RİA Novosti xəbər agentliyinin verdiyi məlumata görə, İsveçrənin Basel vilayətində yaşayan ingilis Djon Qrin "həqiqi dağ havası" satışı biznesinə başlayıb. Hava ilə doldurulmuş yarım litrlik butulkanın qiyməti 97 dollar, bir litrlik butulkanın qiyməti 167 dollar, 3 litrlik butulkanın qiyməti isə 247 dollardır.

Djon Drin bu qeyri-adi biznesindən əldə etdiyi gəlirin 25 faizini World Vision xeyriyyə təşkilatının hesabına köçürür. Butulkalar orijinallıq sertifikatı və GPS-koordinatı ilə təchiz olunub.

## NAMİZƏDLƏRİN ADLARI SON DƏQİQƏLƏRƏ QƏDƏR GİZLİ SAXLANILIR

***2017-ci il üçün Nobel Sülh Mükafatı 318 namizədin arasından seçiləcək.***



Bu barədə Norveç Nobel Komitəsi məlumat verib. Qeyd edilib ki, namizədlərin ümumi siyahısına 215 fiziki şəxs və 103 təşkilat adı daxildir. Builki Nobel Sülh Mükafatına namizədlərin sayı 2016-cı ildə qeydə alınan tarixi rekorddan (376 namizəd) sonra ikinci yer tutur.

Nobel Fondunun daxili qaydalarına əsasən namizədlərin sayı açıqlandıqdan sonra seçim prosesi başlayır. Nəticədə payız aylarına kimi siyahıda yalnız iyirmi ictimai xadimin adı qalır. Siyahıda olan namizədlərin adları son dəqiqələrə qədər gizli saxlanılır. Nobel Sülh Mükafatı laureatının adı isə oktyabr ayında Oslo şəhərində xüsusi təşkil olunacaq tədbirdə açıqlanır.

Laureatların mükafatlandırılması mərasimləri həmişə mükafatın banisinin vəfat etdiyi gün – dekabrın 10-da Stokholm və Oslo şəhərlərində keçirilir. Fizika, kimya, fiziologiya və təbabət, ədəbiyyat və iqtisadiyyat sahələrində mükafatların təqdim edilməsi mərasimləri Stokholmda keçirilir. Nobel Sülh Mükafatı isə Oslo Şəhər Ratuşasında təqdim olunur.

Xatırladaq ki, keçən il Kolumbiyanın Prezidenti Xuan Manuel Santos Nobel Sülh Mükafatının laureatı seçilib. O, bu mükafata Kolumbiya İnqilabçı Silahlı Qüvvələrinin rəhbəri Rodriqo London ilə nail olduğu sülh razılaşmasına görə layiq görülüb.

***Rauf Əliyev***

## İNANDIRICI GÖRÜNMƏSƏ DƏ ...

***Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin tədqiqatlarına görə, pul qazanmaq bacarığı hələ ana bətnində formalaşır. Məlum olduğu kimi, əgər şəhadət barmağı adsız barmaqdan qısadırsa, deməli, insan bətndaxili inkişaf prosesində güclü testosteron təsirinə məruz qalıb. Alimlər müəyyən ediblər ki, belə insanlar çox vaxt maliyyə uğuru qazanırlar.***

"The Daily Mail" nəşri xəbər verir ki, tədqiqatda yaşı 25-60 arasında olan 2 min adam iştirak edib. Mütəxəssislər könüllülərin barmaqlarının uzunluğunu ölçüblər. Sonra iştirakçılar gəlir səviyyəsi barədə suallara cavab veriblər. Tədqiqatçılar nəticələrə təsir göstərə biləcək amilləri nəzərə alıblar. Məlum olub ki, qadınların şəhadət və adsız barmaqları arasında nisbət nə qədər kiçikdirsə, onların pul qazanmaq bacarığı bir o qədər güclüdür.

Müəyyən edilib ki, şəhadət barmağı adsız barmağından qısa olan güclü cinsin nümayəndələrinin gəlir səviyyəsi yüksəkdir. Şəhadət barmağı adsız barmağından uzun olan kişilər arasında yalnız təhsil səviyyəsi yüksək olanlar seçiliblər. Onlar da yaxşı pul qazanıblar.



## YUXUSUZLUQ ORQANİZMƏ YALNIZ FİZİKİ ZƏRƏR VURMUR

***wek.ru saytının məlumatına görə, gecə yuxusu zamanı orqanizm sitokin adlı xüsusi kimyəvi maddə ifraz edir. Bu maddə çoxsaylı virus və infeksiyaların immun sisteminə mənfi təsirinin qarşısını alır. Bundan əlavə peyvənddən sonra orqanizmdə anticisimlərin yaranması yuxunun keyfiyyətindən asılıdır.***



Son tədqiqatlara əsasən sutkada beş və daha az saat yatanlarda digərlərinə nisbətən piylənmə riski iki dəfə artıqdır. Buna səbəb xroniki yuxusuzluğun toxluq və aclığa cavabdeh hormonun ifrazının zəifləməsidir. Bu hormonun balansının pozulması daimi aclıq hissinə səbəb olur.

Xroniki yuxusuzluq ürək-damar xəstəlikləri riskini artırır, arterial təzyiqi yüksəldir. Mütəxəssislərin fikrincə beş saatdan az yatanların orqanizmləri qlükozanın transformasiyasını zəiflədir ki, bu da qanda şəkərin artmasına səbəb olur.

Yuxuda orqanizm dərinin elastikliyinə cavabdeh hormonlar ifraz edir. Bu hormonlar qırışların əmələ gəlməsində həlledici rol oynayır. Yaxşı yuxu dəri hüceyrələrinin bərpasını yaxşılaşdırır, sərbəst radikalların onlara mənfi təsirini azaldır.

Yuxusuzluq sümük kütləsinin formalaşmasına maneələr törədir. Bu fakt isə sümüklərin zədələnməsinə səbəb olan bir sıra xəstəliklər yarada bilir.

Yuxusuzluq orqanizmə yalnız fiziki zərər vermir, depressiyalara, psixi pozuntulara da səbəb olur.

## HƏR ƏRZAĞIN ÖZ VAXTI...

***Alimlər müəyyən məhsulların soyuducuda neçə müddət təhlükəsiz saxlandığını araşdırıblar.***



The Daily Mail nəşri xəbər verir ki, tədqiqatlar nəticəsində balığın orijinal qablaşdırmadan çıxarıldıqdan sonra yalnız bir, çiy ət və ət məhsullarının isə iki-üç gün təhlükəsiz şəkildə soyuducuda saxlana biləcəyi bəlli olub. Bundan əlavə məlum olub ki, hisə verilmiş qızıl balıq iki həftəyə qədər, vetçina - iki gün, bekon - bir həftə, kolbasa məhsulları üç gün, tumsuz yumşaq meyvələr bir-iki, tumlu meyvələr üç-yeddi, salat üç, yaşıl tərəvəzlər üç-dörd, süd dörd-beş, yumşaq pendir iki-üç gün, bərk pendir və yumurta isə bir həftə soyuducuda qoruna bilər.

Danimarka Texniki Universitetinin mütəxəssisləri vakuum qablaşdırmanın təhlükəsizliyə zəmanət vermədiyini diriblər. Belə ki, bu qablaşdırmada müxtəlif ölümcül bakteriyaların ola biləcəyi istisna edilmir.

Ekspertlərin sözlərinə görə, vakuum qablaşdırmadan istifadə nəticəsində burada mövcud olan bir sıra bakteriyalara yoluxmuş xəstələrin dörddəbiri ölüm riski ilə üzləşir. Buna səbəb olaraq Listeria monocytogens patogenlərin oksigen çatışmazlığı şəraitində aqresivləşdiyi göstərilir ki, bu da onların insan orqanizminə daxil olduqda fəal hücuma keçmələri ilə nəticələnə bilər.

Elm adamlarının sözlərinə görə bu baxımdan süd, dondurma, pendir, ət, balıq və tərəvəz kimi ərzaqlar vakuum qablaşdırmada saxlandıqda insan orqanizminə təhlükə yaradır.




## ƏNƏNƏVİ BOSFOR TURNİRİNDƏ 1502 İDMANÇI GÜCÜNÜ SINAYIB

***6 qızıl, 3 gümüş və 10 bürünc medala sahib olan idmançılarımız 25 ölkə arasında medal cədvəlində ikinci yeri tutublar.***

İdmançılarımızdan Firdovsi Fərzəliyev (60 kq), Niyazi Əliyev (67 kq), Rafael Ağayev (75 kq), Ayxan Mamayev (84 kq), Asiman Qurbanlı (84 kq-dan çox) və Rövşən Əliyev kata yarışında qızıl medal qazanıblar. Kata yarışında Tural Ağalarzadə (67 kq), Şahin Atamov (84 kq-dan çox) və İsmayıl Quliyev fəxri kürsünün ikinci pilləsinə qalxıblar. Fərid Səfərov (11 yaş, 35 kq), Hüseyn Məmmədli (13 yaş, 55 kq), Həsən Əliyev (16-17 yaş, 55 kq), Samir Məmmədov (75 kq), Orxan Heydərli (84 kq-dan çox), Tural Balcanlı (kata), Nuranə Əliyeva (50 kq), Fəridə Abiyeva (61 kq), həmçinin komanda yarışlarında İlahə Qasımova, Fəridə Abiyeva və Nuranə Əliyevadan ibarət kumiteçilər, Rövşən Əliyev, Tural Balcanlı və İsmayıl Quliyevdən ibarət kataçılar bürünc mükafatlarla kifayətlənməli olublar.

Müxtəlif yaş qrupları üzrə keçirilən ənənəvi turnirdə 1502 idmançı iştirak edib. Turnirin açılış mərasimində Azərbaycan Milli Karate Federasiyasının prezidenti, Dünya Karate Federasiyası Texniki Komitəsinin üzvü, yarışa fəxri qonaq kimi dəvət olunan Yaşar Bəşirova Türkiyə Karate Federasiyasının prezidenti Esed Delihasan tərəfindən xatirə hədiyyəsi təqdim olunub.

IV İslam Həmrəyliyi Oyunlarına hazırlıqları davam etdirən əsas milli komandamızın martın sonunda Dubayda nüfuzlu Karate-1 Premyer Liqa turnirinə qatılması nəzərdə tutulub.

## AZƏRBAYCAN CÜDOÇULARI AVROPA KUBOKU YARIŞLARINDA 9 MEDAL QAZANIBLAR

***Antalyada yeniyetmələr arasında cüdo üzrə Avropa kuboku yarışlarına yekun vurulub.***

Azərbaycan Cüdo Federasiyasından bildirilib ki, yarışın sonuncu günündə Azərbaycan milli komandası aktivinə daha beş medal yazdırıb. Ölkəmizi təmsil edən Cəfər Əkbərli (90 kq) qızıl , Adil Kərimli (90 kq), Məhəmməd Abdullayev (90 kq-dan yuxarı) gümüş, Günel Bəkirzadə (57 kq) və Süleyman Yaqubov (90 kq) bürünc medal qazanıblar.

Beləliklə, yeniyetmələrdən ibarət milli komandamız Antalya turnirində 4 qızıl, 2 gümüş və 3 bürünc medala sahib olaraq komanda hesabında ikinci yeri tutub.

Xatırladaq ki, yarışın ilk günündə ölkəmizi təmsil edən Əli Əsgərli (50 kq), Əmrah Səlimli (55 kq) və Knyaz Mahmudlu (66 kq) qızıl medala, Rüfət Məmmədov (60 kq) isə bürünc medala sahib olub.




Qeyd edək ki, Avropa kuboku yarışlarında 18 ölkədən 362 idmançı (218 oğlan, 144 qız) mübarizə aparıb.

## YARIŞDA 15 ÖLKƏDƏN 350-DƏN ÇOX İDMANÇI İŞTİRAK EDİB




***Azərbaycan Ciu-Citsu Federasiyasının yığma komandasının üzvləri Bolqarıstanın Bansko şəhərində güc strukturları arasında keçirilən dünya çempionatında 1 qızıl və 3 gümüş medal qazanıblar.***

Federasiyadan bildiriblər ki, Vüqar Cəfərov (69 kq) 30-35 yaşlı ustalar arasında faytinq üzrə yarışda bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Orxan Rüstəmli (94 kq) faytinq yarışında gümüş medala layiq görülüb. Yığmamızın daha bir üzvü Riad Camalbəyli (79 kq) nevadze kateqoriyası üzrə yarışın finalında uduzaraq gümüş medalla kifayətlənməli olub. Vüqar Cəfərov isə açıq çəki dərəcəsində mübarizədə ikinci yeri tutub.

Yarışda 15 ölkədən 350-dən çox idmançı iştirak edib.






## KİŞİLƏR VƏ QADINLAR ARASINDA AZƏRBAYCAN ÇEMPİONATINA YEKUN VURULUB

***Martın 3-də Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasında kişilər və qadınlar arasında Azərbaycan çempionatına yekun vurulub.***



94 kiloqram çəki dərəcəsində tamaşaçılar maraqlı mübarizəyə şahid olublar. Yenə bir kiloqram fərq həlledici olub. Qızıl medal Nailxan Nəbiyevə qismət olub. O, 362 kiloqram (161+201) nəticə ilə rəqiblərini üstələyib və çempion adına sahib olub. 361 kiloqram (161+200) nəticə göstərən Rövşən Fətullayev gümüş medal qazanıb. Bürünc medal 330 kiloqram (150+180) nəticə göstərən Hüseyn İsmayılova qismət olub.

Körpücük üzərinə son olaraq çəkisi 105 kiloqrama qədər və yuxarı çəki dərəcələrində mübarizə aparan atletlər çıxıblar. Bu çəki dərəcəsində 281 kiloqramı (126+155) başı üzərinə qaldıran Əziz Nurməmmədov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gümüş medal toplam 280 kiloqram (125+155) nəticə göstərən Xəlil Gəraylı, bürünc isə 274 kiloqram (118+156) nəticə ilə Ümidvar Bayramlıya qismət olub. 105 kiloqramdan yuxarı çəki dərəcəsində çempion adını lənkəranlı atlet Azər Məmmədli 373 kiloqram (165+208) nəticə ilə qazanıb. Gümüş medalı Rolan Piriyev (315 kq, 140+175), bürünc mükafatı isə Vasif Səfərov (298 kq, 142+156) əldə ediblər.






## ON ƏN GÜCLÜ QROSSMEYSTER MÜBARİZƏ APARACAQ

***Ötən üç ildə olduğu kimi, bu il də tanınmış Azərbaycan qrossmeysteri Vüqar Həşimovun Memorialı keçiriləcək.***

Beynəlxalq turnir "Synergy Group" şirkətinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə aprelin 20-dən 30-dək Şəmkirdə keçiriləcək.

Vüqar Həşimovun xatirəsinə həsr olunmuş superturnirdə azərbaycanlı qrossmeysterlər Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov ilə yanaşı, Uesli So (ABŞ), Vladimir Kramnik, Sergey Karyakin (Rusiya), Maykl Adams (İngiltərə), Pentala Harikrişna (Hindistan), Pavel Elyanov (Ukrayna), Podoslav Voytaşek (Polşa) və Veselin Topalov (Bolqarıstan) mübarizə aparacaqlar.

Xatırladaq ki, ötənilki turnirin qalibi Şəhriyar Məmmədyarov olub, 2014-cü və 2015-ci illərdə dünya çempionu Maqnus Karlsen (Norveç) qalib gəlib.

Turnirin təntənəli açılış mərasimi aprelin 20-də olacaq.

## AĞIR ATLETLƏR ARASINDA AZƏRBAYCAN ÇEMPİONATI BAŞA ÇATIB

***Ağır Atletika Akademiyasında veteran ağır atletlər arasında Azərbaycan çempionatı keçirilib.***




Təcrübəli ağırlıqqaldıranların yarışı böyük maraqla izlənib.

Qaliblər Sinkleyr və Manone-Meltzer cədvəllərinə əsasən müəyyən edilib.

Qızıl medalı 200 kiloqram (90+110) nəticə və 421,05 xalla 69 yaşlı Vladimir Jilyayev qazanıb. Gümüş medala 277 kiloqram (126+151) nəticə və 363.25 xalla Namiq Cəmilov, bürünc mükafata isə 160 kiloqram (75+85) nəticə və 356.98 xalla Akif Alıyev sahib olublar.




## OLİMPİYA VƏ DÜNYA ÇEMPİONLARI İLƏ VETERAN FUTBOLÇULARIN DOSTLUQ GÖRÜŞÜ KEÇİRİLİB



***5 mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə veteran futbolçularla idmanın müxtəlif növləri üzrə Olimpiya və dünya çempionları arasında futbol matçı keçirilib.***

Çempionlardan ibarət komandanın heyətində Olimpiya çempionları Toğrul Əsgərov, Şərif Şərifov, Cəbrayıl Həsənov, Hacı Əliyev, dünya çempionlarından Cəmaləddin Maqamedov, Əsgərxan Novruzov, Yaşar Əliyev yer alıblar.

Veteran futbolçulardan ibarət komandanın heyətində isə Arif Həsənov, Nadir Əliyev, Əli Abışov, İlqar Huseynov, Yunis Huseynov, Zaur İsmayılov, Elmir Xankişiyev, Eldəniz Məmmədov çıxış ediblər.

Maraqlı idman mübarizəsi şəraitində keçən görüşdə təcrübəli veteran futbolçular 8:5 hesabı ilə qələbə qazanıblar.

## E L A N

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Yarenqa" təchizat gəmisinə 2014-cü ildə verilmiş "Gəmi Tarixinin Fasiləsiz Qeydləri" (CSR №01/014) sənədi itdiyi üçün etibarsız sayılır.**

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1003, Bakı şəhəri,
Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76
Redaktor
(070) 252-39-02

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 725